7 fevral 2024 №9-10 (2075)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## “Türkiyənin yanında olmağımızdan böyük qürur duyuruq”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il fevralın 6-da Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ildönümü ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub göndərib.

“Bu fəlakət Türkiyəni olduğu kimi Azərbaycanı da dərindən sarsıtdı. Xalqımız həmin ağır günlərdə qardaş Türkiyə xalqı ilə bir ürək olaraq, faciənin ağrı-acısını bölüşdü, sonsuz kədərini birlikdə yaşadı. Zəlzələ xəbərinin ilk dəqiqələrindən heç bir yardım çağırışını gözləmədən Azərbaycan xalqı və dövləti öz qardaşlıq borcunu yerinə yetirmək üçün bütün imkanlarını səfərbər etdi”, – deyə məktubda bildirilir.

səh. 2

## “Molla Nəsrəddin” filminin çəkilişləri beş ölkədə aparılacaq





Xəbər verdiyimiz kimi, TÜRKSOY Daimi Şurasının 2023-cü ilin oktyabrında Şuşa şəhərində keçirilən 40-cı iclasında alınan qərara əsasən, Türk dünyasının ortaq folklor qəhrəmanı Molla Nəsrəddin haqqında bədii film çəkiləcək. Təşkilata üzv ölkələrin mədəniyyət nazirlikləri və TÜRKSOY-un dəstəyi ilə ərsəyə gələcək ekran əsərinə Azərbaycanın Xalq artisti, kinorejissor Vaqif Mustafayev quruluş verəcək.

Filmin hazırlıq prosesi ilə bağlı sualımızı cavablandıran rejissor bu günlərdə Türkiyəyə səfər etdiklərini, Ankarada, TÜRKSOY-un iqamətgahında təşkilatın baş katibinin müavini Sayit Yusufla görüş keçirərək film layihəsinin icrası ilə əlaqədar fikir mübadiləsi apardıqlarını bildirdi: “Hazırda iştirakçı türk respublikalarından ssenarilərin dəyərləndirilməsi mərhələsindəyik. Ssenari üzərində iş yekunlaşdıqdan sonra artıq filmin sonrakı prosesləri haqqında danışmaq olar”.

Rejissorun sözlərinə görə, müştərək ekran əsərinin Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanda lentə alınması nəzərdə tutulur.

## “Gəncliyin səsi” festivalından yaddaşlara yazılanlar

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 1-3 fevral tarixlərində Azərbaycan Gəncləri Gününə (2 fevral) həsr olunmuş 10-cu “Gəncliyin səsi” festivalı keçirilib.



Fevralın 1-də Beynəlxalq Muğam Mərkəzində (BMM) festivalın açılış mərasimi olub. Qonaqlar mərkəzin foyesində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) Dizayn fakültəsində geyim dizaynı üzrə təhsil alan tələbələrin “Tomris sorağında” adlı moda kolleksiyası ilə tanış olublar.

Sonra BMM-in zalında festivalın ilk konsert proqramı təqdim edilib. Ənənəvi saz havaları, bəstəkar yaradıcılığında istifadə olunan, eləcə də pianoda improvizə edilmiş aşıq musiqiləri maraqla qarşılanıb. Bununla yanaşı, müxtəlif dövrlərdə yaşamış aşıqların sözlərinə yazılmış mahnılar xanəndə və xor kollektivi tərəfindən ifa olunub.

Proqramda ADMİU, bu təhsil ocağının nəzdində fəaliyyət göstərən Humanitar Kollec, Azərbaycan Milli Konservatoriyası, Abşeron rayonu Mehdiabad qəsəbə Uşaq musiqi məktəbinin müəllim, tələbə və şagird heyəti öz ifaları ilə tamaşaçıların zövqünü oxşayıblar.

davamı səh. 3-də

# Azərbaycanın müstəqillik tarixində ilk

### Tarixi Zəfərdən sonra ölkəmizin bütün ərazisini əhatə edən seçki keçirilir

Fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçirilir. Azərbaycanın müstəqillik tarixində bu seçkilər ilk dəfə ölkənin bütün ərazisində – 2020-ci il Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş, eləcə də 2023-cü ilin 19-20 sentyabrındakı lokal antiterror əməliyyatı zamanı dövlət suverenliyimizin bərpa olunduğu şəhər və rayonlarda da keçiriləcək.



Ümumiyyətlə, indiyədək respublikamızın bütün ərazisini əhatə edən seçki prosesi sonuncu dəfə sovet dövründə – 1985-ci ildə 11-ci çağırış Azərbaycan SSR Ali Sovetinə seçkilər olub. 1988-ci ildə Azərbaycanın keçmiş Dağlıq Qarabağ bölgəsində erməni separatizmi baş qaldırandan, 1992-93-cü illərdə Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayonumuz Ermənistan tərəfindən işğal olunandan sonra ümumilikdə ölkəmizin beşdə biri seçkilərdən kənarda qalmışdı. Beləliklə, müstəqillik tarixinin ən şanlı səhifəsi olan Zəfərdən sonra ilk seçki ərazisi və sərhədləri bütöv Azərbaycanı əhatə edir.

Onu da qeyd edək ki, 7 fevral növbədənkənar prezident seçkiləri Azərbaycan Respublikasında bu qəbildən sayca 9-cu seçkidir. Bundan öncə prezident seçkiləri (o cümlədən növbədənkənar) 1991, 1992, 1993, 1998, 2003, 2008, 2013 və 2018-ci illərdə keçirilib.

7 fevral 2024-cü il tarixinə Azərbaycan Respublikasında qeydə alınmış seçici sayı 6 milyon 478 min 623 nəfərdir. Bu barədə fevralın 6-da Mərkəzi Seçki Komissiyasında (MSK) keçirilən mətbuat konfransında məlumat verilib.

Səsvermə ümumilikdə 6537 seçki məntəqəsində (125 seçki dairəsi üzrə) keçiriləcək. Həmçinin 37 xarici ölkədəki səfirlik və konsulluqlarda 49 seçki məntəqəsi yaradılıb. Həmin məntəqələrdə 23 mindən artıq seçici qeydə alınıb. İşğaldan azad edilmiş ərazilərimizdə isə 26 seçki məntəqəsi yaradılıb.

MSK sədri Məzahir Pənahov onu da bildirib ki, seçkiləri 90 372 müşahidəçi izləyəcək. Onlardan 89 366-sı yerli, 790-nı isə beynəlxalq müşahidəçidir.

Növbədənkənar prezident seçkilərinə xarici medianın da marağı böyükdür. 109 beynəlxalq media qurumundan 216 jurnalist akkreditasiyadan keçib.

Həmçinin seçki günü proseslərin əvvəldən axıradək, birbaşa və arasıkəsilmədən izlənilməsi məqsədilə 119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb.

Xatırladaq ki, növbədənkənar prezident seçkilərində yeddi namizəd var: hazırkı dövlət başçısı və Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Əliyev; namizədliyi özü tərəfindən irəli sürülən Zahid Oruc; Milli Cəbhə Partiyasının prezidentliyə namizədi Razi Nurullayev; Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafa; Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayev; Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyev; namizədliyi özü tərəfindən irəli sürülən Fuad Əliyev.

Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, bu seçkilər respublikanın həyatında yeni mərhələnin başlanğıcı olmalıdır. Zəfər ruhlu ilk seçkimiz ölkəmiz və xalqımız üçün xeyirli və uğurlu olsun!...

## “Bir məhəllədən iki nəfər” – ikisi də bəstəkar

Fevralın 5-də Beynəlxalq Muğam Mərkəzində Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin (MİM) “Bir məhəllədən iki nəfər” adlı konserti keçirildi.



Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) dəstəyi ilə gerçəkləşən musiqi axşamı dahi bəstəkar, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Qara Qarayevin doğum gününə və onun oğlu, tanınmış bəstəkar, Xalq artisti Fərəc Qarayevin yaradıcılığına həsr olunmuşdu.

Gecədə tamaşaçılar arasında Mədəniyyət Nazirliyinin əməkdaşları, ADMİU-nun müəllim heyəti, musiqi və incəsənət məktəblərinin direktorları da vardı.

Konsertin proqramı bəstəkar ata və oğulun yaradıcılıq nümunələri üzərində qurulmuşdu. Görkəmli bəstəkarlar haqqında çəkilmiş filmlərdən fraqmentlər təqdim olunur, bu fraqmentləri isə müəlliflərin əsərlərindən seçilmiş parçalar əvəz edirdi. Qara Qarayevin müsahibələrini, sənət haqqında düşüncələrini izləyən tamaşaçı daha sonra onun dünya səhnələrini bəzəyən möhtəşəm əsərlərini dinləyirdi.

Tədbirdə həmçinin Xalq artisti, professor Ülviyyə Hacıbəyovanın və Bakı Musiqi Akademiyasının (BMA) dosenti, Fərəc Qarayevin tələbəsi olmuş Aliyə Məmmədovanın bəstəkarlar haqqında çıxışları maraqla qarşılandı.

Gecədə Mərkəzi İncəsənət Məktəbinin kamera ansamblı, simli kvinteti, xalq çalğı alətləri ansamblı, müəllim və şagirdləri, həmçinin BMA-nın tələbələri və Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyası şagirdlərinin rəngarəng ifaları tamaşaçıların zövqünü oxşadı.

## Türkiyə əsrin fəlakətindən bir il sonra

Fevralın 6-da Türkiyə tarixində ən böyük təbii fəlakətin, 53 mindən çox insanın həyatına son qoyan zəlzələnin birinci ildönümü tamam oldu.



2023-cü il fevralın 6-da yerli vaxtla gecə saat 4:17 radələrində Türkiyənin cənub-şərqində – episentri Kahramanmaraşın Pazarcık rayonunda olan 7,7 bal gücündə zəlzələ ölkənin 10-a yaxın vilayətində minlərlə insanı dağıntılar altında qoydu. Zəlzələnin ağır şoku içində olan bölgələr həmin gün yerli vaxtla saat 14:24-də yenə mərkəzi Kahramanmaraş (Elbistan rayonu) olan 7,6 bal gücündə yeraltı təkanla sarsıldı.

Zəlzələ Türkiyənin Kahramanmaraş, Hatay, Kilis, Diyarbəkir, Adana, Osmaniyə, Qaziantep, Şanlıurfa, Adıyaman və Malatya vilayətləri ilə yanaşı, qonşu Suriyada da böyük dağıntı və tələfat törətdi.

Azərbaycanın da ilk gündən yaxından iştirak etdiyi axtarış-xilasetmə işləri həftələrlə sürdü. Açıqlanan rəqəmlərə görə, zəlzələ nəticəsində 53 min 537 nəfər həlak olub. 107 min nəfər müxtəlif bədən xəsarətləri alıb.

Yeraltı təkanlar zamanı ümumilikdə 40 minə yaxın bina dağılıb. Dünya Səhiyyə Təşkilatı da bu zəlzələləri bölgənin ən böyük fəlakəti kimi qiymətləndirib.

Fevralın 6-da gecə saatlarında Türkiyənin hər yerində ötən ilin 6 fevral zəlzələlərində həyatını itirənlərin xatirələri anılıb. Zəlzələ bölgələrində insanlar gecəni küçələrdə keçiriblər. Minlərlə insan əllərində Türkiyə bayraqları və çiçəklərlə yürüş ediblər.

Prezident Rəcəb Tayyib Ərdoğan da xalqa mesajında əsrin fəlakətində ölkəsinin əsrin birliyini nümayiş etdirdiyini bildirib.

Zəlzələnin birinci ildönümündə təxminən 46 min yeni mənzil sahiblərinə təqdim edilir. Qarşıdan gələn iki ay ərzində isə daha 75 min mənzilin sahiblərinə təqdim edilməsi planlaşdırılır. Bu rəqəmin ilin sonuna qədər 200 minə çatacağı gözlənilir.

Türkiyə Daxili İşlər Nazirliyinin məlumatına görə, zəlzələ bölgəsində 414 şəhərcikdə ümumilikdə 215 mindən çox konteyner quraşdırılıb və 691 min nəfər konteyner evlərdə yaşayır.



Xalq artisti Rafiqə Axundova vəfat edib

səh. 2



“Elm və maarif” – Ağdam teatrında premyera

səh. 4





Firəngiz Şərifovanın 100 illiyində məzarı ziyarət olunub

səh.2

№9-10 (2075)
7 fevral 2024
www.medeniyyet.az

# 2024-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2024-cü il Gənclər üçün Prezident mükafatları verilsin:

Abdullayeva Gülnar Rizvan qızı
Ağamirova Rəvanə Seymur qızı
Ağazadə Taryel İsa oğlu
Allahverdiyev Ayxan Elman oğlu
Baxışova Rzayeva Kimyəxanım Ziyad qızı
Məhərrəmova Zərifə Hüseyn qızı
Məmmədov Ulucay Akif oğlu
Məmmədova Dinara Bəxtiyar qızı
Məmmədova Fatimə Nizami qızı
Mirələmli Pərviz Atamalı oğlu.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 1 fevral 2024-cü il**

# Əmək pensiyaları 11,2 faiz artırılıb

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev fevralın 5-də "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" sərəncam imzalayıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sərəncamla bağlı məlumat yayıb. Bildirilib ki, sərəncamla 2024-cü il yanvarın 1-dək təyin edilmiş bütün pensiyalar Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən, 2023-cü il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 11,2 faiz indeksləşdirilməklə 2024-cü ilin 1 yanvar tarixindən artırılır.

Bu artımadək Azərbaycanda əmək pensiyasının minimum məbləği 280 manat təşkil edib. 11,2 faiz indeksləşdirilmədən sonra bu məbləğ 311 manat 36 qəpik olacaq.

Ümumilikdə 1,1 milyon pensiyaçını əhatə edən artımlar üçün illik 630 milyon manat xərclənəcək.

# "Türkiyənin yanında olmağımızdan böyük qürur duyuruq"

## Zəlzələnin dağıtdığı Kahramanmaraşda "Azərbaycan" məhəlləsi inşa olunur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il fevralın 6-da Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ildönümü ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub göndərib.



Dövlətimizin başçısı məktubda bu dəhşətli faciə nəticəsində həlak olmuş on minlərlə bacı-qardaşlarımızın əziz xatirəsini dərin hörmət və ehtiramla yad edərək onlara Allahdan rəhmət, doğmalarına və yaxınlarına səbir diləyib.

Məktubda daha sonra deyilir:

Bu fəlakət Türkiyəni olduğu kimi Azərbaycanı da dərindən sarsıtdı. Xalqımız həmin ağır günlərdə qardaş Türkiyə xalqı ilə bir ürək olaraq, faciənin ağrı-acısını bölüşdü, sonsuz kədərini birlikdə yaşadı. Zəlzələ xəbərinin ilk dəqiqələrindən heç bir yardım çağırışını gözləmədən Azərbaycan xalqı və dövləti öz qardaşlıq borcunu yerinə yetirmək üçün bütün imkanlarını səfərbər etdi. Baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması işlərinə və axtarış-xilasetmə əməliyyatlarına cəlb olunmuş xilasedicilərimiz, həkimlərimiz və könüllülərimiz türkiyəli həmkarları ilə çiyin-çiyinə böyük cəsarətlə, əzmlə və fədakarlıqla fəaliyyət göstərdi. Dövlət və özəl qurumlarla yanaşı kiçikdən böyüyə hər bir soydaşımız zəlzələ qurbanlarına dəstək və mənəvi dayaq olmaq üçün əlindən gələni əsirgəmədi.

Sizin qətiyyətli rəhbərliyiniz altında Türkiyə Hökuməti zəlzələnin səbəb olduğu irimiqyaslı dağıntıların aradan qaldırılması, zərər çəkmiş bölgənin dirçəldilməsi, evsiz qalan milyonlarla insanın evlə təmin edilməsi üçün var qüvvəsi ilə çalışır. Azərbaycan da hazırda Kahramanmaraş vilayətində humanitar fəaliyyətini davam etdirərək burada aparılan yenidənqurma və bərpa işlərində, sosial obyektlərin inşasında yaxından iştirak edir. Biz bu nəcib və şərəfli missiyada Türkiyənin yanında olmağımızdan böyük qürur duyuruq.

Bütün bunlar Azərbaycan-Türkiyə sarsılmaz birliyinin və həmrəyliyinin növbəti təzahürü olaraq qardaşlıq salnaməmizə əbədi olaraq həkk olundu. Türkiyə yaxşı gündə və hüznlü gündə Azərbaycanın yanında olduğu kimi biz də daim Türkiyənin yanındayıq və bundan sonra da olacağıq. Çünki biz bir millət, iki dövlətik.

Əminəm ki, Sizin liderliyiniz, Türkiyə xalqının mübarizə əzmi, həmrəylik ruhu və mətin iradəsi sayəsində qüdrətli Türkiyə dövləti bu çətinliklərin də öhdəsindən tez bir zamanda gələcək, bu acı sınaqdan şərəflə və daha da güclənmiş çıxacaqdır.

Bu hüznlü gündə bir daha Türkiyənin kədərinə şərik olduğumuzu bildirir, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından başsağlığı verirəm.

***

Qeyd edək ki, Azərbaycan ötən ilin 6 fevralında Türkiyənin cənub-şərqində baş verən (episentri Kahramanmaraş vilayətinin Pazarcık və Elbistan rayonları olmaqla) və 53 mindən çox insanın həyatına son qoyan zəlzələdən dərhal sonra qardaş ölkəyə yardım əlini uzadıb. Dövlətimizlə bərabər, xalqımız da Türkiyənin dərdini öz dərdi kimi qəbul edib. Zəlzələdən zərər çəkmiş əhaliyə ərzaq, geyim və digər lazımi əşyalardan ibarət yardım toplama kampaniyasına on minlərlə soydaşımız qoşulub.

Təbii fəlakətin dağıtdığı ərazilərin yenidən qurulmasında da ölkəmiz yaxından iştirak edir. Hazırda Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsi salınır.

Azərbaycan dövlətinin vəsaiti hesabına inşa olunan yaşayış məhəlləsinin ümumi sahəsi 32 hektar təşkil edəcək. Azərbaycan Hökumətinin icraçı qurumu Mənzil İnşaatı Dövlət Agentliyidir.

Layihə üzrə məhəllə yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər obyektlərdən ibarətdir. Yaşayış məhəlləsində inşa olunacaq 71 binada 2, 3 və 4 otaqlı ümumilikdə 1323 mənzil olacaq. Eyni zamanda həmin ərazidə məskunlaşacaq sakinlərin iş yerləri ilə təmin olunması məqsədilə yaşayış binalarında 799 qeyri-yaşayış (ticarət) obyekti istifadəyə veriləcək. Yaşayış məhəlləsində 300 şagird yerlik ibtidai məktəbin və 60 yerlik uşaq bağçasının, eləcə də plan üzrə 11 və 12-ci kvartalların tikintisinə artıq başlanılıb.

# Milli balet sənətinin əfsanəsi

## Xalq artisti Rəfiqə Axundova vəfat edib

Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Milli balet sənətinin əfsanəsi, görkəmli rəqqasə, baletmeyster, Xalq artisti Rəfiqə Axundova 6 fevral 2024-cü il tarixində, ömrünün 93-cü ilində vəfat edib.

Rəfiqə Hacı qızı Axundova 7 avqust 1931-ci ildə Bakıda anadan olub. Rəqsə olan marağı onu Bakı Xoreoqrafiya Məktəbinə gətirib. O, buradakı təhsili ilə kifayətlənməyərək məktəbi bitirən kimi Moskvada Böyük Teatrda təkmilləşmə kursu keçib. 1951-ci ildən ömrünü və yaradıcılıq fəaliyyətini Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına bağlayan Rəfiqə Axundova 20 il burada solist kimi çalışıb. Sonra uzun müddət həmin teatrın baletmeysteri, 1990-cı ildə isə baş baletmeysteri olub.



Sənətkar teatrın solisti kimi dünya və Azərbaycan balet sənətinin bir çox nümunələrində mürəkkəb partiyaları ifa edərək geniş tamaşaçı rəğbəti qazanıb. "Qız qalası" (Ə.Bədəlbəyli), "Yeddi gözəl", "İldırımlı yollarla" (Q.Qarayev), "Gülşən" (S.Hacıbəyov), "Məhəbbət əfsanəsi" (A.Məlikov), "Baxçasaray fontanı" (B.Asafyev), "Jizel" (A.Adan) və s. baletlərdə əsas partiyaların mahir ifaçısı olub. Görkəmli bəstəkar Qara Qarayevin baletlərində Rəfiqə Axundovanın özünəməxsus ustalıq və məharətlə yaratdığı obrazlar o qədər fərqli və təsiredici olub ki, hətta bəzən həyatda ona səhnədə yaratdığı obrazların adı ilə xitab edirmişlər.

Rəfiqə Axundova həm də yaradıcı baletmeyster olub. O, həyat yoldaşı, görkəmli balet artisti, baletmeyster, Xalq artisti Maqsud Məmmədovla birlikdə Opera və Balet Teatrında "Xəzər balladası" (T.Bakıxanov), "Qobustan kölgələri" (F.Qarayev), "Yallı", "Azərbaycan süitası" (R.Hacıyev), "Babək" (A.Əlizadə), "Şelkunçik" (P.Çaykovski), 1975–1978-ci illərdə Qara Qarayevin "İldırımlı yollarla" və "Yeddi gözəl" baletlərinə də quruluş verib.

Rəfiqə Axundova uzun müddət Əlcəzair, İsveç, Misir və Belçikada pedaqoq-baletmeyster işləyib. Ötən əsrin 70-ci illərində Rəfiqə Axundovanın xoş sorağı dünyanın möhtəşəm balet səhnələrindən gəlirdi. O, Novosibirskdə (Rusiya) "İldırımlı yollarla" baletinin quruluşunu vermiş, həmçinin Maqsud Məmmədovla birgə Qahirədə (Misir) və Ankarada (Türkiyə) "Yeddi gözəl", Antverpendə (Belçika) "Kaleydoskop" (F.Qarayev) baletlərini tamaşaya qoymuşdu.

Rəfiqə Axundova ustad xoreoqraf kimi milli kinomuzun tarixinə də öz imzasını atıb. "Dədə Qorqud", "Qərib cinlər diyarında", "Qayınana", "Bəyin oğurlanması" və s. filmlərdə onun quruluş verdiyi özünəməxsus, şux rəqslər yaddaqalandır.

Azərbaycan balet sənətinin və milli xoreoqrafiyanın inkişafındakı xidmətləri yüksək qiymətləndirilən Rəfiqə Axundova 1958-ci ildə "Əməkdar artist", 1970-ci ildə "Xalq artisti" fəxri adlarına, eləcə də "Şərəf nişanı" ordeni (1959) və müstəqil Azərbaycanın "Şöhrət" ordeninə (2021) layiq görülüb. 2002-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

Görkəmli sənətkarın əziz xatirəsi Azərbaycanın mədəniyyət və incəsənət tarixində, onun tanıyanların, sənətsevərlərin qəlbində yaşayacaq.

Mədəniyyət Nazirliyinin kollektivi Rəfiqə Axundovanın vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

***

Rəfiqə Axundova fevralın 6-da İkinci Fəxri xiyabanda torpağa tapşırılıb. Xalq artistinin məzarı önünə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın adından, eləcə də Mədəniyyət Nazirliyi, Akademik Opera və Balet Teatrı, Bakı Xoreoqrafiya Akademiyası adından əklillər qoyulub.

# Dövlət təltifləri təqdim edilib

Fevralın 6-da Mədəniyyət Nazirliyində müasir Azərbaycan poeziyasının tanınmış nümayəndəsi, şair, tərcüməçi, Əməkdar incəsənət xadimi Baba Vəziroğluna "Şərəf" ordeni təqdim edilib. 70 yaşı tamam olan Baba Vəziroğlu ölkə başçısının 11 yanvar 2024-cü il tarixli sərəncamı ilə Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

Mədəniyyət naziri Adil Kərimli 70 illik yubileyi və yüksək dövlət təltifi münasibətilə Baba Vəziroğluna təbriklərini çatdırıb. Ədəbiyyat və mədəniyyət xadimlərinə dövlət qayğısından danışan nazir bildirib ki, Ümummilli lider Heydər Əliyev respublikamıza rəhbərliyinin hər iki dövründə bu sahələrin inkişafını diqqətdə saxlayıb, yaradıcı insanlardan öz dəstəyini əsirgəməyib. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Baba Vəziroğlu yaradıcılığına verilən qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.




Sonra nazir "Şərəf" ordeninin nişanını və vəsiqəsini şairə təqdim edib, xatirə şəkli çəkdirilib.

***

Fevralın 6-da Mədəniyyət Nazirliyində Azərbaycan Memarlar İttifaqı idarə heyətinin sədri Əməkdar memar Elbay Qasımzadəyə 2-ci dərəcəli "Əmək" ordeni təqdim olunub. Tanınmış memar 75 illik yubileyi ərəfəsində, Prezident İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli sərəncamı ilə bu ordenə layiq görülüb.

Mədəniyyət naziri Adil Kərimli Elbay Qasımzadəni yüksək dövlət təltifi münasibətilə təbrik edib. Qeyd olunub ki, Azərbaycanda memarlıq sahəsinin inkişafında onun mühüm xidmətləri var. Uzun illər Bakının baş memarı olmuş Elbay Qasımzadənin əməyi dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirilib. O bundan əvvəl "Şöhrət" (2000) və "Şərəf" (2018) ordenləri ilə təltif edilib.

Elbay Qasımzadə fəaliyyətinə verilən böyük dəyərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Nazir dövlət təltifini memara təqdim edib, xatirə şəkli çəkdirilib.

# Xalq artisti Firəngiz Şərifovanın məzarı ziyarət olunub

Fevralın 6-da Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının kollektivi Xalq artisti Firəngiz Şərifovanın (1924 – 2014) 100 illiyi münasibətilə aktrisanın məzarını ziyarət edib.

Mədəniyyət Nazirliyinin müşaviri Oleq Əmirbəyov, Gənc Tamaşaçılar Teatrının quruluşçu rejissoru Nicat Kazımov, Əməkdar artist Şəfəq Əliyeva, Firəngiz Şərifovanın ailə üzvləri sənətkarın həyat və yaradıcılığı haqqında fikirlərini bölüşüb, sənət yoluna nəzər salıblar.

Qeyd olunub ki, Firəngiz Şərifova 1960-cı ildən ömrünün sonunadək Gənc Tamaşaçılar Teatrında aktrisa kimi fəaliyyət göstərib, bir-birindən maraqlı, yaddaqalan rollar ifa etməklə tamaşaçı məhəbbətini qazanıb.



Teatr sənəti sahəsindəki xidmətlərinə görə aktrisa 1960-cı ildə "Əməkdar artist", 1969-cu ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb. 2002-ci ildən Prezident təqaüdçüsü olub.

# Rəsulzadə irsi mədəni və ictimai fikir tariximizdə

Azərbaycan Milli İncəsənət Muzeyində görkəmli ictimai-siyasi və dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin 140 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

"M.Ə.Rəsulzadə irsi Azərbaycanın mədəni və ictimai fikir tarixində" adlı tədbirdə məruzəçi qismində görkəmli dövlət xadiminin nəvəsi Əməkdar rəssam Rais Rəsulzadə və tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi çıxış ediblər.

Rais Rəsulzadə babası haqqında fikirlərini bölüşüb, tədbirdə muzeyin kolleksiyasından nümayiş olunan, Xalq rəssamları Kamil Əliyev və Oqtay Sadıqzadənin çəkdikləri Rəsulzadənin portretlərindən bəhs edib.

Professor Solmaz Rüstəmova-Tohidi Azərbaycan xalqının istiqlal mübarizəsi və ictimai fikir tarixində Rəsulzadənin rolu, həyat yolu, ictimai-siyasi, ədəbi fəaliyyəti haqqında geniş danışıb. Yeni çapdan çıxmış "II Beynəlxalq Rəsulzadə qiraətləri" kitabını muzeyə hədiyyə edib. Qeyd edək ki, bu il Rəsulzadənin 140 illik yubileyi münasibətilə "III Beynəlxalq Rəsulzadə qiraətləri"nin keçirilməsi nəzərdə tutulur.

Daha sonra tədbirdə iştirak edən ziyalılar, Rəsulzadə irsinin Almaniya və İrandan olan tədqiqatçıları məruzələr ətrafında çıxış ediblər.

# İpək Yolunun Dünya İrs Siyahısına daxil edilməsi ilə bağlı iclas

Beynəlxalq Türk Akademiyasının (BTA) prezidenti akademik Şahin Mustafayev "İpək Yolunun UNESCO-nun Dünya İrs Siyahısına namizədlik prosesinin dəstəklənməsi" mövzusunda onlayn keçirilən 6-cı ekspert iclasına qatılıb. İclas UNESCO-nun Dünya İrs Mərkəzi və Mərkəzi Asiya Araşdırmaları Beynəlxalq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilib.

Bu barədə BTA-dan (Astana şəhərində yerləşir) məlumat verilib. Bildirilib ki, iclasın açılışında UNESCO-nun Dünya İrs Mərkəzi Asiya-Sakit Okean Departamentinin direktoru Himalçuli Qurunq təbrik nitqi ilə çıxış edib.

İclasda 2024-cü ildə həyata keçiriləcək layihə barədə fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, bu, UNESCO və Yaponiyanın Dünya Mədəni İrsin Qorunması üzrə Trast Fondu (Japan Fit) tərəfindən həyata keçirilən layihənin 3-cü mərhələsidir. Ekspertlər əmindir ki, "İpək Yolunun Volqa-Xəzər dəhlizi" transmilli nominasiyası tezliklə UNESCO-nun Dünya İrs Siyahısına daxil ediləcək, çünki bundan əvvəl İpək Yolunun digər transsərhəd rayonları da bu siyahıya salınıb.

# Xaricdə mədəniyyət sahəsi üzrə təhsil alanların fikir və təklifləri dinlənilib

Mədəniyyət naziri Adil Kərimli yanvarın 31-də Azərbaycan Milli İncəsənət Muzeyində xaricdə mədəniyyət sahəsi üzrə təhsil alan şəxslərlə görüş keçirib.

Görüşün məqsədi xaricdə təhsil almış və hazırda təhsilini davam etdirən şəxslər arasında dialoq və şəbəkələşmə üçün münbit şərait yaradılması, eyni zamanda xaricdə təhsil almış şəxslərin bilik və bacarıqlarından istifadə olunmaqla ölkəmizin mədəni inkişafına töhfə verməkdən ibarətdir.

İştirakçıları salamlayan nazir ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan söz açıb. Qeyd edib ki, Prezident İlham Əliyevin sərəncamları ilə gənclərimizin müxtəlif ixtisaslar üzrə xaricdə təhsil alması istiqamətində ardıcıl addımlar atılır: "Sizlərin bir çoxu möhtərəm Prezidentimizin müvafiq sərəncamı ilə təsdiq olunmuş "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində dünyanın nüfuzlu universitetlərində mədəniyyətin müxtəlif sahələri üzrə təhsil almış insanlarsınız. Ölkə rəhbərliyi tərəfindən mədəniyyət sahəsinin inkişafı ilə bağlı qarşımızda qoyulan vəzifələrin və tapşırıqların həyata keçirilməsində beynəlxalq təcrübəyə əsaslanan biliklərə, yanaşmalara ehtiyac var".



Bildirilib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondu tərəfindən də gənclərimizin mədəniyyət sahəsi üzrə xaricdə təhsil almalarına mütəmadi dəstək göstərilir.

Daha sonra görüşdə iştirakçıların maraqlı fikirləri dinlənilib, mədəniyyətin ayrı-ayrı sahələri üzrə diskussiya keçirilib.

# Dahi bəstəkarın evində xatirəsi yad edildi



Fevralın 5-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin təşkilatçılığı ilə dünyaşöhrətli bəstəkar Qara Qarayevin anadan olmasının 106-cı ildönümü onun Bakıdakı ev-muzeyində qeyd edildi.

Tədbirdə Xalq artistləri – Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə, Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, mədəniyyət nazirinin müavini Murad Hüseynov, Azərbaycan Dövlət Akademik Filarmoniyasının direktoru Murad Adıgözəlzadə və başqa tanınmış mədəniyyət xadimləri iştirak edirdilər.

Məlumat verildi ki, xatirə tədbirindən öncə unudulmaz sənətkarın Fəxri xiyabandakı məzarı ziyarət olunub.

Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova giriş sözündə dahi bəstəkarın həyat və yaradıcılığından, musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərindən danışdı. Vurğuladı ki, Qara Qarayev Azərbaycanın bəşər mədəniyyətinə bəxş etdiyi nadir istedadlardan biridir. O hələ sağlığında dünyada Azərbaycan musiqi sənətinin əfsanəvi şəxsiyyəti kimi tanınıb.

Bəstəkarın qızı Züleyxa Bağırova-Qarayeva tədbirin iştirakçılarına təşəkkür etdi: "Atamın sağlığında bu tarixi həmişə sevimli tələbələrinin əhatəsində qeyd edərdik. İllər keçsə də, yenə də sevənləri bir araya gəlib onu yad edirlər. Bu sevgiyə görə hər kəsə minnətdaram".

Sonra Q.Qarayevin "Vyetnam süitası"nın (1954) Hanoy şəhərində Vyetnam Milli Simfonik Orkestri və Hanoy Filarmonik Orkestrinin ifasında lentə alınmış videogörüntüləri nümayiş olundu.

Azərbaycanın Vyetnamdakı səfiri Şövqi Mehdizadə, sənətşünaslıq üzrə fəlsəfə elmləri doktoru Nigar Axundova, Əməkdar incəsənət xadimi, BMA-nın professoru Zümrüd Dadaşzadə çıxış etdilər. Diqqətə çatdırıldı ki, Qara Qarayevin yaradıcılığı musiqinin bütün janrlarını əhatə edir. Əsərləri dünya musiqi mədəniyyəti xəzinəsinə daxil olub. Bəstəkarın 70 il öncə yazdığı "Vyetnam süitası" da belə nümunələrdən biridir.

Xalq artisti, professor Ülviyyə Hacıbəyovanın fortepianoda müşayiəti ilə BMA-nın tələbələri S.Aslanova, Z.Davudova, M.İsrafilova, E.Qafarova, A.Mehdiyeva, S.Tağızadə bəstəkarın Ömər Xəyyamın sözlərinə yazdığı "6 rübai" (səs və fortepiano üçün), Akademik Opera və Balet Teatrının solisti Taleh Yəhyayev isə Azərbaycan Milli Konservatoriyasının fortepiano müəllimi Nigar Hüseynzadənin müşayiəti ilə "Vətən" operasından Mərdanın ariyasını ifa etdilər.

**S. Fərəcov**

# Fəxri xiyabanda anım mərasimləri

## Qara Qarayevin və Rüstəm İbrahimbəyovun məzarları ziyarət olunub

Fevralın 5-də, dünyaşöhrətli bəstəkar, pedaqoq, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Qara Qarayevin (1918–1982) doğum günündə Fəxri xiyabandakı məzarı ziyarət olunub.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov, nazirliyin məsul əməkdaşları, musiqi ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi mərasimdə qeyd olunub ki, Qara Qarayev Azərbaycan və dünya musiqi mədəniyyətinə böyük töhfələr vermiş bəstəkar, milli və bəşəri xarakterli yaradıcılığı ilə gələcəyə yeni yollar açan novator sənətkar kimi tanınıb. Onun Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından bəhrələnərək yaratdığı "Yeddi gözəl" və Cənubi Afrika yazıçısı Piter Abrahamsın romanı əsasında yazdığı "İldırımlı yollarla" baletləri dünyanın bir sıra ölkələrində uğurla nümayiş olunub. Böyük bəstəkarın əsərləri bu gün də bir sıra ölkələrin səhnələrində ifa olunur, musiqi mədəniyyətimizin təbliğinə töhfə verir.





Bəstəkarın "Uzaq sahillərdə", "Onun böyük ürəyi", "Bir məhəllədən iki nəfər", "İnsan məskən salır", "Nizami" və s. filmlərə, bir sıra tamaşalara yazdığı musiqilər də ölməzlik qazanıb.

***

Fevralın 5-də Azərbaycan ədəbiyyatının və kino sənətinin görkəmli nümayəndəsi, tanınmış nasir, dramaturq, ssenarist və rejissor, Dövlət mükafatları laureatı, Əməkdar incəsənət xadimi, Xalq yazıçısı Rüstəm İbrahimbəyov (1939–2022) anadan olmasının 85-ci ildönümü tamam oldu.

Bu münasibətlə Azərbaycan Respublikası Kino Agentliyinin baş direktoru vəzifəsini icra edən Orxan Fikrətoğlu, Mədəniyyət Nazirliyinin əməkdaşları, mədəniyyət və incəsənət xadimləri sənətkarın Fəxri xiyabandakı məzarını ziyarət ediblər.

Mərasimdə bildirilib ki, Rüstəm İbrahimbəyov çoxşaxəli yaradıcılığı ilə ölkəmizdə və dünyada şöhrət qazanıb. Qeyd olunub ki, yazıçı Azərbaycan bədii nəsrinin yeni mərhələyə qədəm qoymasında fəal iştirak edib. Sosial-mənəvi problemləri, dramatik konfliktləri və müasirlərimizin daxili aləmini öz əsərlərində böyük ustalıqla əks etdirib. Ədibin əsərləri əsasında 40-dan çox bədii və televiziya filmləri çəkilib.

# "Gənc rəssamların yaradıcılığında qalib ruh əksini tapmalıdır"

Azərbaycan Rəssamlar İttifaqının (ARİ) V.Səmədova adına sərgi salonunda gənc rəssamların əsərlərindən ibarət sərgisi açıldı.

Azərbaycan Gəncləri Günü (2 fevral) münasibətilə təşkil olunan sərginin açılışında Dövlət Rəssamlıq Akademiyasının (ADRA) prorektoru Xalq rəssamı Səlhab Məmmədov ənənəvi layihənin əhəmiyyətini qeyd etdi. Xalq rəssamı dövlət başçısının gənclərə böyük diqqət və qayğı göstərdiyini dedi. Bildirildi ki, sərgidə ADRA ilə yanaşı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, eləcə də müstəqil gənc rəssamların əl işləri nümayiş olunur. Ekspozisiyada müxtəlif janrlarda rəngkarlıq, qrafika, heykəltaraşlıq, tikmə, xalçaçılıq, dekorativ-tətbiqi sənət üzrə əsərlər yer alıb.



Sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev gənc rəssamların mövzu dairəsinin genişlənməsinin vacibliyini vurğuladı, onlara qalib ölkənin gəncləri kimi əsərlərində bu ruhu hiss etdirmələrini tövsiyə etdi.

Çıxışlardan sonra bir neçə gənc rəssama ARİ-nin üzvlük bağlı vəsiqələri təqdim olundu.

Daha sonra qonaqlar sərgi ilə tanış oldular. Sərgidə ümumilikdə 160 əsər yer almışdı.

**Lalə Azəri**

# Mədəniyyət Nazirliyində Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti ilə görüş

Mədəniyyət naziri Adil Kərimli fevralın 2-də Türk Mədəniyyəti və İrsi Fondunun (TMİF) prezidenti Aktotı Raimkulova ilə görüşüb.




Aktotı Raimkulovanı fondun yeni rəhbəri təyin olunması münasibətilə təbrik edən nazir ona işlərində uğurlar arzulayıb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qardaş türk respublikalar ilə əlaqələrin bütün sahələrdə inkişafına, mədəni əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verilir, dövlət başçısının təşəbbüsü və bütün türk dövlətlərinin dəstəyi ilə təsis olunan Türk Mədəniyyəti və İrsi Fondu bu sahədə aparıcı platformalardan biri kimi çıxış edir.

Fond yarandığı dövrdən qardaş xalqların tarixi-mədəni mirasının qorunması, bərpası və təbliği sahəsində diqqətəlayiq fəaliyyət göstərib. Azərbaycanın Mədəniyyət Nazirliyi Türk dünyasının maddi və qeyri-maddi mədəni irsinin beynəlxalq səviyyədə tanıdılması və təbliği ilə bağlı proqram və layihələrdə mütəmadi olaraq iştirak edir, onların həyata keçməsinə dəstək verir.

Qəbula və təbrikə görə nazirə təşəkkürünü bildirən Aktotı Raimkulova yeni dövrün çağırışları kontekstində TMİF-in fəaliyyət istiqamətləri barədə məlumat verib. Qeyd edilib ki, fondun üzərinə düşən vəzifələrin uğurla icrasında üzv dövlətlərin dəstəyi əsas amildir. Bu mənada fondun baş qərargahına ev sahibliyi edən Azərbaycanın rolu xüsusi önəm daşıyır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən fondun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təklifləri və 2024-cü il üzrə fəaliyyət planı, xüsusilə də ortaq türk mədəni irsinin təbliği ilə bağlı nəzərdə tutduğu təşəbbüslər müzakirə edilib.

Aktotı Raimkulova Türk Dövlətləri Təşkilatının 3 noyabr 2023-cü il tarixində Qazaxıstanın Astana şəhərində keçirilən 10-cu Zirvə toplantısında TMİF-in prezidenti təyin olunub. Qazaxıstanın Əməkdar incəsənət xadimi, musiqiçi, sənətşünaslıq elmləri doktoru olan Aktotı Raimkulova 1964-cü ildə Almatı şəhərində Qazaxıstanın tanınmış yazıçısı Rahmetolla Raimkulovun ailəsində doğulub. 1987-ci ildə Kurmanqazı adına Almatı Dövlət Konservatoriyasını bəstəkar, pianoçu və musiqi nəzəriyyəsi müəllimi ixtisası üzrə bitirib. 2007-ci ildə sənətşünaslıq üzrə namizədlik (fəlsəfə doktorluğu), 2010-cu ildə doktorluq dissertasiyalarını müdafiə edib. 2016–2019-cu illərdə Qazaxıstan mədəniyyət və idman nazirinin müavini, 2019–2022-ci illərdə nazir vəzifələrində çalışıb. TMİF-in rəhbəri təyin olunanadək "Qazaxkonsert"in direktoru olub.

# "Gəncliyin səsi" festivalından yaddaşlara yazılanlar

*əvvəli səh. 1-də*

### Filarmoniyada musiqi axşamı

Festivalın daha bir konserti fevralın 2-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında gerçəkləşib. Əvvəlcə gənc rəssamların əsərlərindən ibarət sərgiyə baxış olub.



Musiqi axşamında gənc bəstəkarların diplom işləri olan musiqi əsərləri səsləndirilib. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor – Mustafa Mehmandarov) və Azərbaycan Dövlət Xor Kapellasının (bədii rəhbər – Xalq artisti Gülbacı İmanova) müşayiəti ilə solistlər Nigar Əsgərova (soprano), Rauf Məmmədzadə (bariton), Ümidə Abbasova (violin), Xəyal Əliyev (akkordeon) və Səxavət Məmmədov (tar) çıxış ediblər.

Proqramda Üzeyir Məmmədovun "Zaman axarı" simfoniyası (4 hissə), Nigar Süleymanın "Triptix" simfoniyası (3 hissə), Fərid Fətullayevin "Dəsgah" və Ülkər Aşurbəylinin "Tanqo hekayəti" operasından "Süita" (4 nömrə) əsərləri ifa olunub.

Bütün çıxışlar alqışlarla qarşılanıb.

### Gənc Tamaşaçılar Teatrında "Balaca kişilər"

"Gəncliyin səsi" festivalı çərçivəsində fevralın 2-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında İlqar Fəhminin "Balaca kişilər" pyesi əsasında hazırlanmış eyniadlı tamaşa göstərilib.



Müəllif "Balaca kişilər" poemasını 2020-ci ilin 44 günlük Vətən müharibəsi dövründə qələmə alıb, sonradan əsəri pyesə çevirib. Tamaşanın premyerası 2023-cü ilin may ayında olub.

Düşmənin postunu ələ keçirən xüsusi təyinatlı qüvvələrin döyüşçüləri yeni mövqelər üçün irəli getməlidirlər. Posta nəzarət isə gənc əsgərlərə, bir də yaralı zabitə tapşırılır. Əsas hadisələr də bundan sonra başlanır...

Tamaşanın quruluşçu rejissoru Nicat Kazımov, quruluşçu rəssamı Vüsal Rahimdir. Rolları Əməkdar artistlər Şövqi Hüseynov, Rasim Cəfər, Elnur Bəhramxan, aktyorlar Bəhram Əliheydər, Rəşad Səfərov, Araz Pirimov, Xaliq Bəkirov, Hüseyn Bayramov, Ümman Budaqov, Nurlan Süleymanlı, Sənan Kazımov, Ramiq Nəsirov, Müşfiq Əliyev, Ceyhun Məmmədov, Anar Seyfullayev, Mirzəağa Mirzəyev ifa ediblər.

# Gəncə, Qax və Salyanda "Gəncliyin səsi"



Xəbər verdiyimiz kimi, 1-3 fevral tarixlərində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Gəncləri Gününə (2 fevral) həsr olunmuş 10-cu "Gəncliyin səsi" festivalı keçirilib. Festivalın məqsədi gənclərin yaradıcı sahəyə marağının artırılması, onların istedadının üzə çıxarılmasıdır.

Festival çərçivəsində Gəncədə "Gəncənin gəncləri" layihəsi təqdim olunub. Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsi və Gəncə Dövlət Filarmoniyasının təşkilatçılığı ilə Urban Mərkəzində gerçəkləşən tədbir zamanı şəhərdə fəaliyyət göstərən gənc rəssam və heykəltaraşların əsərləri, digər əl işləri, fotoqrafların çəkdikləri şəkillər maraqla qarşılanıb.

Sərgi konsert proqramı ilə davam edib. Sonda fəal gənclərə fəxri fərmanlar təqdim olunub.

***

"Gəncliyin səsi" festivalı çərçivəsində Gəncə Dövlət Kukla Teatrı Əhməd Orucoğlunun "Zınqrovlu pişik" tamaşasını nümayiş etdirib.

Tamaşadan öncə teatrın foyesində Uşaq incəsənət məktəbi şagirdlərinin əl işləri nümayiş olunub. Gənclər Günü ilə bağlı videoçarx nümayiş etdirilib.

Daha sonra tamaşa təqdim olunub. Səhnə işi alqışlarla qarşılanıb. Uşaqlar teatrın kuklalar hazırlanan emalatxanasında da olub, kuklanın hazırlanmasını izləyiblər.

***

Qax Dövlət Kukla Teatrında isə festival çərçivəsində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Xeyir və





Şər" əsəri ("Yeddi gözəl" poemasından) əsasında hazırlanmış tamaşa təqdim edilib.

Tamaşaçılar əvvəlcə teatrın foyesində yaradıcı gənclərin əl işlərindən ibarət sərgi ilə tanış olublar. Sərgidə fəal iştirak edən gənc rəssamlara fəxri fərmanlar təqdim olunub.

Sonra səhnə əsəri nümayiş olunub. Rejissor Yusif Abdurahmanovun quruluş verdiyi tamaşada Xeyir obrazını İlmar Abdullayev, Şəri isə Araz Mehrablı canlandırıb. Tamaşanın rəssamı Mayis Abdullayevdir.

***

Salyan Dövlət Kukla Teatrı da gənclərin bayramına öz töhfəsini verib. Teatrın foyesində Salyan Dövlət Rəsm Qalereyasının yeniyetmə və gənc dərnək üzvlərinin rəsm sərgisi açılıb. Sərgi ilə tanışlıqdan sonda Salyan Dövlət Kukla Teatrının "Tülkü həccə gedir" tamaşası oynanılıb.

## Laçında yeni kitabxana

Fevralın 4-də Laçın şəhərindəki "LaCinema" kinoteatrının nəzdində "Simurq" adlı kitabxananın açılışı olub.



Kitabxanaya bu ad Laçına yeni köçmüş sakinlərin təşəbbüsü ilə görkəmli maarifçi, yazıçı Tağı Şahbazi Simurğun şərəfinə verilib. Xatırladaq ki, Laçın şəhərinin adını 1923-1926-cı illərdə Azərbaycan MİK-in (hökumətin) katibi olmuş Tağı Şahbazi təklif etmişdi.

Yeni yaradılan kitabxanaya M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası da öz töhfəsini verib və buraya 185 nüsxə kitab göndərib.

Açılış mərasimində ölkəmizdə ilk mobil kitab tətbiqi – "Audiokitab"ın keçirdiyi oyun-müsabiqədə məktəblilər fəal iştirak ediblər.

Bəstəkar, pianoçu Sevda Rəhimova, tarzən Zəfər Əhmədli, pianoçu Şahin Yahyazadə, caz pianoçu İsa Bağırov, zərb alətləri ifaçısı Məhmməd İbrahimli konsert proqramı ilə çıxış ediblər.

## "Hophopnamə" kitab mərkəzinin rəsm müsabiqəsi

Sabirabaddakı "Hophopnamə" kitab mərkəzi tərəfindən 15-31 yanvar tarixlərində keçirilən rəsm müsabiqəsinə yekun vurulub.



10 gənc həvəskar rəssamın iştirak etdiyi müsabiqədə görkəmli şair Mirzə Ələkbər Sabirin "Hophopnamə" kitabının motivləri əsasında rəsm əsərləri çəkilib. Aytac Məmmədova I, Mehdi Həsənli II, Şəbnəm Abasova isə III yerlərə layiq görülüblər.

Mükafatlandırma mərasimində Mil-Muğan RMİ-nin kollektivi, mədəniyyət işçiləri iştirak ediblər. İdarənin rəisi Faiq Xudanlı müsabiqə iştirakçılarına yaradıcılıq uğurları arzulayıb. Qaliblərə fəxri fərman və hədiyyə, digər iştirakçılara fəxri fərman təqdim olunub.

## "Elm və maarif" – Ağdam teatrında premyera

Ağdam Dövlət Dram Teatrında uşaq və yeniyetmələr üçün hazırlanan "Elm və maarif" tamaşasının premyerası olub.



Şair, dramaturq, teatr xadimi Səməd Mənsurun (1879–1927) "Maarif" əsəri əsasında hazırlanan birhissəli tamaşanın quruluşçu rejissoru Elmir Hümbətov, quruluşçu rəssamı Müşfiq Qarayev, musiqi tərtibatçısı Azər Şükürov, rejissor assistenti Xaliq Abdullazadədir.

Rolları teatrın aktyorları Afaq Əliyeva, Səda İbrahimova, Ülviyyə Qasımova, Anar Əhmədov, Hakim Cəfərli, Teymur Kərimov, Vüqar Mərdanov və Tural Yusifov ifa edirlər.

Teatrda 2024-cü il üçün repertuar planı üzrə yeni tamaşanın məşqlərinə də başlanılıb.

Yaradıcı heyət yerli müəllif Şahnaz Şahinin "Mübariz" əsərinə müraciət edib. Tamaşa teatrın baş rejissoru Kərim Həsənovun quruluşunda təqdim olunacaq.

M.F.Axundzadənin "Hekayəti-mərdi-xəsis" komediyası da teatrın repertuar planındadır. Bundan əlavə, Ə.Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" əsərini teatrın gənc rejissoru Elmir Hümbətov ərsəyə gətirəcək. Çingiz Ələsgərlinin "Olmayanlar olanda" pyesi əsasında eyniadlı tamaşanı isə K.Həsənov hazırlayacaq.

## Bölgələrdə gənclərin bayramı

Bölgələrdəki mədəniyyət müəssisələrində 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə müxtəlif tədbirlər təşkil edilib.

Sumqayıt Gənclər Kitabxanasında Gənclər Günü ilə əlaqədar diskussiya keçirilib. Çıxış edənlər bu günün yaranma tarixi, Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi barədə söz açılıb. Tədbir gənclərlə aparılan sual-cavablarla davam edib.

***

Biləsuvar Gənclər evində Gənclər Gününə həsr edilən tədbir keçirilib. Rayonun icra başçısının müavini Ləman Yüzbaşova, Şirvan-Salyan RMİ-nin rəisi Şahin Şahbazov və başqaları çıxış edərək əlamətdar gün münasibətilə gəncləri təbrik ediblər. Çıxışlarda rayon gənclərinin ölkənin hərbi, sosial-iqtisadi, ictimai-siyasi və digər sferalarda layiqincə təmsil olunması xüsusi qeyd edilib. Tədbir konsert proqramı ilə davam edib.



Şirvan-Salyan RMİ-nin tabeliyindəki Şirvan, Salyan, Biləsuvar, Hacıqabul Heydər Əliyev mərkəzləri, Salyan, Biləsuvar Tarix-Diyarşünaslıq muzeyləri, Şirvan, Neftçala Dövlət Rəsm qalereyaları və Şirvan şəhər Mədəniyyət Mərkəzində Gənclər Günü münasibətilə "açıq qapı" təşkil olunub. Həmçinin mədəniyyət müəssisələrində əlamətdar günə həsr olunan tədbirlər, görüşlər, konsertlər və intellektual oyunlar təşkil edilib.

***

Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzində Gənclər Günü ilə əlaqədar konsert proqramı təşkil edilib. Məktəbin şagird və müəllim kollektivi tərəfindən görkəmli bəstəkarların əsərləri səsləndirilib.

***

Quba Tarix-Diyarşünaslıq Muzeyində Gənclər Günü münasibətilə tədbir keçirilib. Əvvəlcə, Gənclər Gününə həsr olunmuş videoçarx nümayiş olunub. Tədbirdə 30 il işğal altında qalan torpaqlarımızın azad olunması uğrunda canlarından keçmiş şəhidlərimizin, öz sağlamlıqlarını vətən uğrunda fəda edən qazilərimizin qəhrəmanlıq və vətənpərvərliklərindən, gənc idmançılarımızın dünya arenasında Azərbaycan bayrağını daim yüksəklərə qaldırmalarından bəhs edilib. Tədbirdə iştirak edən şəhid ailələrinin gənc üzvlərinə, qazilərimizə və digər gənclərə muzeyin rəhbərliyi tərəfindən müxtəlif hədiyyələr verilib.

Siyəzən rayon Heydər Əliyev Mərkəzində Quba-Xaçmaz Regional Gənclər və İdman İdarəsi ilə birgə "İstedadlı gəncliyimiz" adlı sərgi keçirilib. Mərkəzin sərgi salonunda təşkil olunan sərgidə musiqi və fiziki məhdudiyyətli gənclərin təsviri sənət və əl işlərindən ibarət əsərləri nümayiş etdirilib.

***





Şəki-Zaqatala RMİ-nin təşkilatçılığı, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı (MİHİ) Şəki rayon komitəsinin dəstəyi ilə Şəki şəhər Heydər Əliyev Mərkəzində "Mən həmişə gəncəm – 2" adlı intellektual-əyləncəli yarışma keçirilib. Yarışa "Şəki", "Oğuz", "Qəbələ", "Qax", "Zaqatala" və "Balakən" komandaları qatılıblar. "Şəki" komandası yarışın qalibi olub. Qalib komandanın üzvlərinə Şəki-Zaqatala RMİ və MİHİ Şəki rayon komitəsinin fəxri fərmanları təqdim edilib.

***



Ağdaş Rayon İcra Hakimiyyətinin dəstəyi, Mərkəzi Aran RMİ, Mərkəzi Aran Regional Gənclər və





İdman İdarəsi Ağdaş rayonu üzrə sektorunun təşkilatçılığı ilə Gənclər Günü münasibətilə ümumrayon tədbiri keçirilib. Çıxışlarda qeyd edilib ki, bu əlamətdar tarixi gün gənclərə həmişə xüsusi diqqət və qayğı ilə yanaşan Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı müvafiq sərəncamla fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Tədbirdə rayonun bir qrup fəal gənci fəxri fərmanla təltif olunub. Sonra Ağdaş rayon Mədəniyyət Mərkəzinin kollektivi tərəfindən konsert proqramı təqdim edilib.

Əlamətdar gün münasibətilə Mərkəzi Aran RMİ-nin tabeliyində fəaliyyət göstərən muzey müəssisələrində "açıq qapı" elan edilib. Gənclər Heydər Əliyev mərkəzlərini, Tarix-Diyarşünaslıq və ev-muzeylərini ziyarət ediblər.

***

Mil-Muğan Regional Gənclər və İdman İdarəsi, Mil-Muğan RMİ, Mil-Muğan Regional Təhsil İdarəsi də birgə tədbir keçirib. Sabirabad rayonu icra başçısının birinci müavini Həsən Həsənov, Mil-Muğan RMİ-nin rəisi Faiq Xudanlı və başqaları çıxış edərək gəncləri bayram münasibətilə təbrik edib, onlara uğurlar arzulayıblar.

Çıxışlardan sonra Mil-Muğan Regional Gənclər və İdman, Mədəniyyət və Təhsil idarələri arasında qarşılıqlı əməkdaşlığı nəzərdə tutan niyyət protokolu imzalanıb. Sabirabad, Saatlı, İmişli və Beyləqan rayonlarının daxil olduğu Mil-Muğan regionunun ictimai-siyasi həyatında, təhsildə, idmanda, elm və mədəniyyət sahələrində fərqlənən gənclər fəxri fərman və "İlğım" şirkətinin hədiyyələri ilə təltif olunublar.

Tədbirin bədii hissəsində Mil-Muğan RMİ-nin təşkil etdiyi proqram təqdim olunub. Şair Şəhriyar del Gerani şeirlərini oxuyub, musiqiçilər Məhəbbət Səfərov, Sənani Səfərli, Həsən Həsənov, Mərhəmət Ağalarova ifaları ilə tədbirə rəng qatıblar. Əhmədabad kənd Mədəniyyət evinin "Axıska" folklor kollektivi rəqs nömrələri ilə çıxış edib.

***

Gənclər Günü münasibətilə Qəni Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzində disput keçirilib. Azərbaycan gənclərinin vətənpərvərliyi mövzusu ətrafında fikir mübadiləsi aparılıb. Sonda hərbi vətənpərvərlik mövzulu "Hadrut, sən azadsan!" filmi nümayiş olunub.

Lerik rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Nə? Harada? Nə zaman?" adlı intellektual bilik yarışı keçirilib. "Çıraq" komandası I yerə layiq görülüb. İştirakçı komandalar diplomla təltif olunublar.

Masallı Dövlət Rəsm Qalereyasında isə "Əli fırçalı gənclər" adlı rəsm sərgisi təşkil edilib. İki gün davam edən sərgidə rayonun gənc rəssamlarının əl işləri nümayiş olunub.

***

Azərbaycan Gəncləri Günü münasibətilə Qazax-Tovuz və Şərqi Zəngəzur RMİ-lərin tabeliyində fəaliyyət göstərən müəssisələrdə də tədbirlər keçirilib. Çıxış edənlər Ümummilli liderin əsasını qoyduğu gənclər siyasətinin ölkəmizdə uğurla davam etdirildiyini, hazırda Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclərin yetişdiyini vurğulayıblar. Tədbirlərdə bir qrup fəal gəncə fəxri fərmanlar təqdim edilib.

**Hazırladı: N.Məmmədli**

## Abidələrə vurulmuş qanunsuz reklam lövhələri sökülüb

Gəncə şəhərinin Heydər Əliyev, Nizami, Atatürk prospektlərində, Cavadxan və Mirzə Abbas Abbaszadə küçələrində yerləşən bir sıra tarix-memarlıq abidələrinin fasadına qanunsuz vurulmuş reklam lövhələri aşkar edilib.




Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Gəncə Regional İdarəsinin əməkdaşları tərəfindən aparılan monitorinq zamanı aşkar olunan qanunsuz reklamların sökülməsi ilə bağlı obyekt sahiblərinə xəbərdarlıq edilib. Dövlət Reklam Agentliyi ilə əməkdaşlıq çərçivəsində qeyd olunan ünvanlarda yerləşən 25 memarlıq abidəsinin fasadına vurulmuş qanunsuz reklam lövhələri sökülərək nöqsanlar aradan qaldırılıb.

Hazırda bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir.

Dövlət Xidməti vətəndaşları tarix-mədəniyyət abidələrinin mühafizəsinə, gələcək nəsillərə tam şəkildə çatdırılmasına dəstək göstərməyə, abidələrin qorunması məsələsinə həssas yanaşmağa çağırır.

# "Muzeydə kino"

## Sənət adamlarının yaradıcılıq dünyasına səyahət

Xəbər verdiyimiz kimi, Azərbaycan Milli İncəsənət Muzeyi "Muzeydə kino" adlı yeni layihəyə başlayıb. Layihə çərçivəsində təqdim edilən filmlər sənət insanlarının yaradıcılıq dünyasına daha dərindən bələd olmaq imkanı yaradır.



Filmlərin nümayişi şənbə və bazar günləri muzeyin kinozalında keçirilir. Layihənin ilk təqdimatında – 3-4 fevralda rejissor Şamil Nəcəfzadənin "Üfüqü ötənlər" filmi nümayiş olunub. Tammetrajlı bədii-sənədli ekran əsəri yaradıcılıqları və yaşadıqları tale ilə yaddaşlara həkk olunan beş avanqard rəssamın – Cavad Mircavadov, Tofiq Cavadov, Əşrəf Murad, Rasim Babayev və Qorxmaz Əfəndiyev haqqındadır. 2011-ci ildə "Yaddaş" studiyasında istehsal edilmiş filmin ssenari müəllifi Sara Oğuz Nəsirova, operatoru Nizami Abbas, prodüseri Cavid İmamverdiyev, koordinatoru Şirin Məlikovadır.

Qeyd edək ki, "Muzeydə kino" layihəsi hər həftə yenilənəcək proqramla sizlərin görüşünə gələcək. Bu həftəsonu tamaşaçılar Xalq rəssamı Böyükağa Mirzəzadənin yaradıcılığından bəhs edən "Rəssam ömrünün palitrası" (2006, rejissor Mübariz Nağıyev) və "Maestro Niyazi" (1975, rejissor Rauf Nağıyev) filmlərini izləyə biləcəklər.

**Lalə Azəri**

# "Gənclər gələcəyimizdir"

## Mərkəzi İncəsənət Məktəbinin konserti

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi tərəfindən Beynəlxalq Muğam Mərkəzində (BMM) Gənclər Gününə həsr olunmuş "Gənclər gələcəyimizdir" adlı konsert keçirilib.

Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) dəstəyi ilə gerçəkləşən konsertdə öncə mərkəzin foyesində məktəbin xalq çalğı alətləri orkestrinin, xanəndə və balaban ansamblının, o cümlədən rəqs qruplarının və ADMİU-nun tələbəsi Ülviyyə Qarayevanın ifasında gözəl musiqi nömrələri təqdim edilib.



Tədbirin aparıcısı – məktəbin nəzəriyyə şöbəsinin müdiri, musiqişünas Nabat Əsgərova Ulu öndər Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı fərmanla 2 fevral tarixinin Azərbaycan Gəncləri Günü elan edilməsi barədə söz açıb.

Musiqi nömrələri xoreoqrafiya və rəssamlıq şöbəsi şagirdlərinin əl işlərindən ibarət "Rəngarəng notlar" adlı rəsm sərgisi ilə davam edib.

Konsertin ikinci hissəsi BMM-in salonunda davam edib. Burada həm klassik, həm də xalq çalğı alətlərindən solo ifalar, sonda isə məktəbin kamera ansamblının ifası alqışlarla qarşılanıb.

# Milli Qəhrəmanın xatirəsi teatrda yad edilib

## Film və tamaşa nümayişi

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının repertuarındakı "Yarımçıq qalmış" tamaşasının fevralın 3-də keçirilən növbəti nümayişi Milli Qəhrəman Koroğlu Rəhimovun 70 illik yubileyinə həsr edilib.

Tamaşanın nümayişindən əvvəl rejissor Kəmalə Musayevanın "Vətənim mənim" adlı sənədli film təqdim edilib. Filmdə 1992-ci ilin iyul ayında könüllü olaraq Birinci Qarabağ müharibəsinə yollanan, həmin ilin oktyabrında 39 yaşında qəhrəmancasına şəhid olan Koroğlu Rəhimovun döyüş yolundan, müharibədə göstərdiyi qəhrəmanlıqdan bəhs olunub.

Sonra teatrın truppa rəhbəri Ələsgər Muradxanlı çıxış edərək Milli Qəhrəmanın şərəfli həyat yoluna nəzər salıb.

Milli Qəhrəmanın oğlu Rəşad Rəhimov atasının xatirəsinə göstərilən ehtirama görə təşəkkürünü bildirib. Çıxışlardan sonra "Yarımçıq qalmış" tamaşası nümayiş olunub.

Yefim Abramov və Leyla Bəyimin "Xəyalpərvər oğlanlar" əsəri əsasında Xalq artisti, mərhum rejissor Vaqif Əsədov tərəfindən hazırlanan tamaşa Birinci Qarabağ müharibəsinin ağrı-acılarından, müharibənin insanların həyatında yaratmış olduğu faciələrdən bəhs edir.



Rolları Əməkdar artistlər Leyli Vəliyeva, Elnur Bəhramxan, aktyorlar Bəhram Əliheydər, Asya Atakişiyeva, Vahid Orucoğlu, Nuriyyə Əliyeva, Aygün Fətullayeva, Xəyalə Qasımova, Gülbəniz Lətifova, Ramil Məmmədov, Elgün Yəhyayev, Mirzə Ağa Mirzəyev, Ramiq Nəsirov, Tahir İsmayılov, Xaliq Bəkirov ifa ediblər.

# Sənət salnaməmizə yazılan "Əbədi duet"

Mənası "rəqs edirəm" olan "balet" kəlməsi insanın vücudu ilə ruhunun harmoniyası, musiqi ilə plastikanın, bədən dili ilə ünsiyyətin mürəkkəb və təsirli təqdim olunduğu incəsənət növüdür. Səhnədə bir qu quşu kimi süzüb, ceyrantək atılan balet artistinin heyrətlə izlədiyimiz rəqsinin nə qədər çətinliklə, necə uzun məşqlə, fiziki ağrılar sayəsində ərsəyə gəldiyini də bilirik.





Yəqin ki, balet tamaşalarının nümayişindən sonrakı təzim hissəsinə qədər zalda gözləmisiniz. Son takt və elementin icrasından sonra zərif, çəlimsiz balerina bədənindən, qabarıq sinəsindən alınaraq keçən o dərin köks ötürməsini, bunun davamı olaraq anlıq dincəltdiyi pəncə və barmaqlarını xəfifcə irəli – zala doğru gətirdiyini də görmüsünüz. Mənə elə gəlir ki, onlar bu yolla öz əzalarına, onları tamaşaçı önünə aparan ayaqlarına, barmaqlarına bir də tamaşaçı önündə təşəkkür edirlər. Xoşbəxt halda səhnə arxasına keçir, pointesini (balet artistinin ayaq geyimi) soyunur və döyənək olan barmaqlarını sığallayaraq məsud halda onu sonrakı tamaşaya həvəsləndirirlər...

Xoreoqrafiyanın ən yüksək pilləsi olan balet Azərbaycan incəsənət tarixində də xüsusi yer tutur. Bir sıra Azərbaycan bəstəkarları şöhrəti dünyanı dolaşan diqqətəlayiq nümunələr yaradıblar. Klassik dünya və milli balet örnəklərinin tamaşaya qoyulması ölkəmizdə sənətkarlar nəslinin yetişməsinə mühüm töhfələr verib.

Elə "Əbədi duet"ləri ilə səhnə və həyatımıza nüfuz edib, nəinki ölkəmizdə, onun hüdudlarından çox-çox uzaqlarda da öz layiqli dəyərini alan balet cütlüyümüz kimi. Sadəcə, onların nağılı oynadıqları əksər balet tamaşalarındakı kimi şirin vüsalla bitmədi. Ölümün saldığı amansız ayrılıq və yaradıcılıqlarının ən parlaq, ən şöhrətli məqamında səhnə ilə vidalaşmaq oldu nəsibləri. Bir balet artisti üçün bundan ağır nə ola bilər?!

Azərbaycan balet sənətinin əfsanələri – Xalq artistləri, mükəmməl ailə cütlüyü kimi həyatda və səhnədə daim həsədlə seyr edilən Çimnaz Babayeva və Vladimir Pletnyov məhz o nadir insanlardan idi. Onların qısa, lakin upuzun bir ömrə bərabər səhnə və sənət birgəlikləri milli balet sənətimiz və sənətkarlarımız üçün əsl nümunə idi.

Bu günlərdə (29 yanvar) unudulmaz cütlük haqqında "Əbədi duet" adlı sənədli-bioqrafik filmi izlədim. Böyük sevgi və səmimiyyətlə ərsəyə gələn ekran işi vasitəsilə iki istedadlı sənətkarın həyat və yaradıcılıq yolları ilə özlərinin ifa etdikləri fərqli balet nümunələri sayəsində yenidən tanış olmaq imkanı qazandım. Nizami Kino Mərkəzində təqdim olunan və Çimnaz xanımın tələbələrinin, balet cütlüyünün sənətinə heyran tamaşaçıların maraqla izlədikləri film alqışlarla qarşılandı.

Filmin ideya və ssenari müəllifi, rejissoru və montajçısı Çimnaz Babayevanın yetirmələrindən Əməkdar artist Samir Səmədov, prodüseri Gülnarə Lütfəliqızıdır.

Filmdə nadir arxiv materiallarından istifadə edilib. Ayrı-ayrı balet tamaşalarından kadrlar, eləcə də Vladimir Pletnyovun keçirdiyi ağır xəstəlikdən sonra xəstəxanada olarkən yazdığı gündəlikdən fraqmentlər bizi iki böyük sənətkarın ömür və sənət yoluna səyahətə apara bildi.

Ekran işi Azərbaycan dilindən savayı ingilis və rus dillərində də səsləndirilib.

Filmdə hər iki sənətkarın həyatına ətraflı nəzər salınır, oynadıqları balet əsərləri, ifaçılığa gətirdikləri yeniliklər sadalanır.

Qeyd edək ki, Xalq artisti, Dövlət mükafatı laureatı Çimnaz Məmməd qızı Babayeva 23 dekabr 1946-cı ildə Bakıda doğulub. 1964–1977-ci illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olub, daha sonra teatrda baletmeyster kimi fəaliyyət göstərib. 23 dekabr 2019-cu ildə vəfat edib.

Xalq artisti, Dövlət mükafatı laureatı Vladimir Nikolayeviç Pletnyov 8 dekabr 1946-cı ildə Göyçayda anadan olub. Akademik Opera və Balet Teatrının solisti olub, Bakı Xoreoqrafiya Məktəbində (indiki BXA) dərs deyib. 21 fevral 1988-ci ildə dünyasını dəyişib.

Filmdə balet artistlərinin 1965–1978-ci illərdə Akademik Opera və Balet Teatrının solisti kimi çıxış etdikləri tamaşalardan – "Qız qalası", "Yeddi gözəl", "İldırımlı yollarla", "Məhəbbət əfsanəsi", "Sonalar gölü", "Yatmış gözəl", "Nəsimi haqqında dastan", "Don Kixot" və s. parçalar, hər iki sənətkarın pedaqoji fəaliyyəti, yetişdirdikləri tələbələr və milli balet sənəti irsimizdəki silinməz imzalarından söz açılır.

Sorağı Fransa, İtaliya, İsveç, Danimarka, Norveç, Hindistan, Birma, Nigeriya, Seneqal və Nepaldan gələn, fərqli səhnələrdə öz ecazkar ifaları ilə tamaşaçıların zövqünü oxşamış hər iki sənətkarın hüznlü həyat hekayəti filmi izləyənlərdə həm də acı təəssüf doğurdu. Biz həm də yaradıcılığının ən parlaq vaxtında aşağı ətrafları amputasiya olunan V.Pletnyov səhnədən ayrılandan sonra Çimnaz xanım onun amansız həyat sınağıyla barışmayıb səhnəni əbədi tərk edərək qalan illərini ərinə qulluq ilə keçirməyə söz verən sədaqətli Azərbaycan qadınını alqışladıq...

Onlar hələ sənətə gələrkən bir-birinə vəfa andı içdilər və əbədiyyət yolunda yenidən birləşdilər. Çimnaz xanım həyat yoldaşının itkisini yetişdirdiyi tələbələri və onların uğurlarına sevinməklə ovutmağa çalışdı. 1977-ci ildən 2000-ci ilədək Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında məşqçi baletmeyster vəzifəsində fəaliyyət göstərdi. Qalan illərini isə özünü tənhalığa tərk edərək, əslində isə sevdiyi insanla əbədi görüşü gözləyərək keçirdi. Beləcə, doğulduğu gündə də dünyasını dəyişərək əbədi duet ortağına qovuşdu...

**Həmidə Nizamiqızı**

Heydər Əliyev – 101

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçmələrin dərcini davam etdiririk.

## İllərin xronikasından (97)

### 2001-ci il 15 oktyabr

Prezident Heydər Əliyev milli və dünya klassik rəqs əsərlərinin təbliğində mühüm xidmətləri olan Azərbaycan Dövlət Rəqs Ansamblı işçilərinin sosial təminatını yaxşılaşdırmaq haqqında sərəncam imzalayıb. Ansamblın işçilərinin aylıq maaşları 2002-ci il yanvarın 1-dən orta hesabla beş dəfə artırılıb.

Azərbaycan musiqi sənətinin inkişafindakı xidmətlərinə görə bəstəkar, Xalq artisti Ramiz Mustafayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb. Sənətkara 75 illik yubileyi münasibətilə təbrik məktubu göndərib.

### 2001-ci il 17 oktyabr

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş mərasimdə nitq söyləyib.

*"...Bəlkə də bu on ilin gündəliyi yazılmalıdır. Hansı gün nə olub, Azərbaycan hansı gün nə vəziyyətdə olubdur... Çünki dövr, zaman gələcək, Azərbaycan müstəqil bir dövlət kimi daha da möhkəmlənəcək, qüdrətli bir dövlət olacaqdır. Ancaq gələcək nəsillər də gərək bunu unutmasınlar. Ona görə də bu on il təhlil edilməlidir. İndi bizim tarixçilər adətən keçmiş əsrləri təhlil edirlər, əsərlər yazırlar, elmi dərəcələr alırlar. Buna etiraz yoxdur, çünki tariximizin hər səhifəsi bizim üçün əhəmiyyətlidir. Ancaq tariximizin bu səhifəsi, bu onillik səhifəsi, hesab edirəm ki, bizim xalqımız üçün və gələcək nəsillər üçün ən əhəmiyyətli bir dövrdür. O mənada ki, faciəli dövrdür, ağır dövrdür, amma eyni zamanda, bu dövrü bizim xalqımız öz müdrikliyi ilə, öz iradəsi ilə yaşadı və bu çətinliklərdən çıxdı...".*

### 2001-ci il 18 oktyabr

Dövlət müstəqilliyinin 10-cu ildönümündə Şəhidlər xiyabanını ziyarət edib.

"Gülüstan" Sarayında Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümü münasibətilə təşkil olunmuş rəsmi qəbulda nitq söyləyib. Mərasimdə iştirak edən mədəniyyət xadimləri ilə də səmimi şəkildə görüşərək söhbət edib.

### 2001-ci il 27 oktyabr

İctimai xadim, Azərbaycan ədəbiyyatı və elminin görkəmli nümayəndəsi, Xalq yazıçısı Mirzə İbrahimovun 90 illik yubileyi haqqında sərəncam imzalayıb.

### 2001-ci il 9 noyabr

Dünya Azərbaycanlılarının I Qurultayında nitq söyləyib.

*"...Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam! Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı yaşatmalıyıq...".*

### 2001-ci il 3 dekabr

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə şair Nəriman Həsənzadəni "Şöhrət" ordeni ilə təltif edib.

Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Xalq artisti Yaqub Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb. Muğam sənətinin görkəmli nümayəndəsini yaradıcılığının 50 illiyi münasibətilə təbrik edib.

### 2001-ci il 9 dekabr

"Uşaqların Beynəlxalq Televiziya və Radio Günü" münasibətilə keçirilmiş şənlikdə nitq söyləyib.

### 2001-ci il 12 dekabr

Azərbaycan xalqı qarşısında xidmətlərinə görə bir qrup ədəbiyyat və incəsənət xadiminə fərdi təqaüdlərin verilməsi haqqında sərəncam imzalayıb. Fərdi təqaüdə layiq görülənlər: memar Davud Axundov, rəssamlar Rasim Babayev, Elbəy Rzaquliyev, Xalidə Səfərova, şair Fikrət Qoca, balet artisti Maqsud Məmmədov.

### 2001-ci il 24 dekabr

Azərbaycanda kitabxanaşünaslıq elminin inkişaf etdirilməsində xidmətlərinə görə Abuzər Xələfova "Əməkdar elm xadimi" fəxri adının verilməsi haqqında fərman imzalayıb.

### 2001-ci il 25 dekabr

Xalq şairi Rəsul Rzanın 90 illiyinə həsr olunmuş yubiley gecəsində iştirak edib.

### 2002-ci il 19 yanvar

20 Yanvar faciəsinin 12-ci ildönümünə həsr olunmuş mərasimdə iştirak edib.

### 2002-ci il 3 mart

Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin möhkəmləndirilməsi və musiqi sənətinin inkişafındakı xidmətlərinə görə Mstislav Leopoldoviç Rostropoviçin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb.

Mstislav Rostropoviçlə Respublika Sarayında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konsertində olub.

### 2002-ci il 4 mart

Görkəmli musiqiçi Mstislav Rostropoviçə "İstiqlal" ordenini təqdim edib.

Mstislav Rostropoviçin 75 illiyi şərəfinə təşkil olunmuş rəsmi qəbulda çıxış edib.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

Mirzə Şəfi Vazeh – 230

# İki əsr öncə Gəncədən Avropaya düşən söz işığı

XIX əsrin birinci yarısında Azərbaycanda maarifçi mühitin formalaşmasında xidmətləri olan ziyalı mütəfəkkirlərdən biri də görkəmli şair, pedaqoq Mirzə Şəfi Vazehdir. Onun yaradıcılığı Azərbaycan-Avropa ədəbi-mədəni əlaqələrinin inkişafında özünəməxsus yer tutur. Ədəbi yaradıcılığının şöhrəti Avropaya da yayılmış şairin bu il anadan olmasının 230 illiyidir.

Mirzə Şəfi Kərbəlayı Sadıq oğlu Vazeh 1794-cü ildə Gəncədə memar ailəsində anadan olub. Əvvəl molla yanında, sonra mədrəsədə oxuyur. Erkən çağlardan poeziyaya maraq göstərən Şəfi mədrəsədə təhsilini başa vurandan sonra Azərbaycan və rus klassiklərinin əsərlərini, ərəb, fars ədəbiyyatını mütaliə edir və sufilik fəlsəfəsi ilə maraqlanır. Özü də bədii yaradıcılıqla məşğul olur.

O, yaradıcılığında insan mənəviyyatının bənzərsizliyini, həyat eşqini vəsf edir. "Yusif və Züleyxa", "Sədi və şah" poemaları, qəzəl, rübai və aforizmləri ədəbi aləmdə maraqla qarşılanır.

Gəncədə "Divani-hikmət" ("Hikmət evi") adlı ədəbi məclis yaradan şair Mirzə Mehdi Naci, Şeyx İbrahim Qüdsi, Ağa İsmayıl Zəbih, Molla Abbas Şölə kimi tanınmış şair və ziyalıları ətrafına toplayır.



Azərbaycanda ilk ədəbi məclislərdən olan "Divani-hikmət" o dövrdə regionda ədəbiyyatın inkişafına öz müsbət təsirini göstərib.

Araşdırmalarda qeyd olunur ki, şairin yaradıcılığı, tədrisə və maarifçiliklə bağlı təşəbbüsləri din xadimləri tərəfindən birmənalı qarşılanmır, müəllifə təzyiqlər başlanır. Buna görə də Mirzə Şəfi 1840-cı ildə Gəncə şəhərini tərk edir. O vaxt Qafqazın mədəniyyət, elm və təhsil mərkəzi sayılan Tiflis şəhərinə köçür. Qafqaz Canişinliyində çalışan M.F.Axundzadənin köməkliyi ilə Tiflisdə şəhər məktəblərindən birində müəllim kimi işə düzəlir. Mükəmməl bildiyi "nəstəliq" xətti ilə yazıdan, sonra isə Şərq dilləri və ədəbiyyatından dərs deyir. Eyni zamanda "Divani-hikmət" məclisini burada bərpa edir. Məclisdə poeziya, fəlsəfə, etika və dövrün mühüm ictimai məsələlərinə dair fikir mübadiləsi aparılır. A.Bakıxanov, M.F.Axundzadə və o zaman Şərqə səyahətə çıxmış və yolu Tiflisdən düşən alman şairi Fridrix Bodenştedt bu ədəbi məclisin iştirakçısı olurlar.

Alman şair Vazehin yaradıcılığı ilə yaxından maraqlanır. Ondan Azərbaycan və fars dillərini öyrənir. Şərq səyahətini başa vurub Almaniyaya qayıdarkən Vazeh əlyazma halında olan şeir məcmuəsini ona hədiyyə edir. Bu haqda F.Bodenştedt "Şərqdə min bir gün" kitabında yazır: "Mən səyahətdən qayıdanda dostluq xatirəsi olaraq Mirzə Şəfi öz əsərlərindən ibarət bir şeir məcmuəsini mənə bağışladı və ona bir müqəddimə də yazdı". Həmin müqəddimədə deyilir: "...Tələbəm və dostum olan Bodenştedt əfəndinin hörmət və iltimaslarına görə mən Mirzə Şəfi ona qəsidə, qəzəl, mürəbbeat, müqəttəat və məsnəvilərdən ibarət olan öz məcmueyi-əşarımı hədiyyə etdim".

Almaniyaya qayıdan F.Bodenştedt həmin şeirləri alman dilinə çevirərək başqa Şərq şairlərinin əsərləri ilə birlikdə "Şərqdə min bir gün" (1850), "Mirzə Şəfi nəğmələri" (1851) adlı kitablarını nəşr etdirir. Hətta kitabın üz qabığında müəllifin portreti də verilir.

"Şərqdə min bir gün" kitabı Qərbdə böyük maraqla qarşılanır. Bu maraq şairin maarifçi ideyalarında insanı mənən, ruhən təmizləyən əməyin dəyərləndirməsi ilə bağlı idi. Şair daim həqiqət və doğrunun tərəfində olub. "Həqiqəti ifadə etməyin ən yaxşı yolu şeirdir" deyən şair şeirlə həqiqəti qardaş sanır:

*Qoy sən həqiqəti söyləyən zaman,*
*Qopsun min təhlükə, qopsun min tufan.*
*Gəl baxma, bunlara ey Mirzə Şəfi,*
*Uca tut daima arı, şərafi.*

Mirzə Şəfi dini xurafata qarşı barışmaz mövqe nümayiş etdirib. Şairin fikrincə, insan bir də dünyaya gəlir və onun iki həyatı olmur. Ona görə də insan xoşbəxt olmaq üçün çalışmalı və cənnəti bu dünyada axtarmalıdır. Müəllifin bununla bağlı çoxsaylı aforizmləri var.

Tezliklə şairin şeirləri ingilis, fransız, italyan, polyak, macar, rus və başqa dillərə tərcümə edilir. F.Bodenştedtin 1851-ci ildə çap etdirdiyi "Mirzə Şəfi nəğmələri" adlı kitabda öz müəllimi və onun şeirlərini necə tərcümə etməsi ilə bağlı söhbət açır. Şairin şeirlərinin Avropada böyük şöhrət qazandığını görən F.Bodenştedt bu əsərlərin ona məxsus olduğunu bildirir. 1875-ci ildə özünü həmin şeirlərin müəllifi elan edir. Lakin uzun illər sonra tarixi ədalət yerini tapır. Bu əsərlərin gerçək müəllifinin Mirzə Şəfi olduğu dünyaya məlum olur. Bodenştedt, gec də olsa, nəşr etdirdiyi poetik incilərin Vazehə məxsus olduğunu etiraf edir...

Mirzə Şəfi isə ömrünü bütün bu olaylardan xəbərsiz başa vurur. 1848-ci ildə Gəncəyə qayıdır. Qəza məktəbində müəllim kimi fəaliyyətə başlayır. 1850-ci ildə yenə Tiflisə dönür, gimnaziyada yenidən Azərbaycan və fars dillərini tədris edir, eyni zamanda bədii yaradıcılıqla məşğul olur.

M.Ş.Vazeh 1852-ci ildə Tiflis gimnaziyasının Şərq dilləri müəllimi İvan Qriqoryevlə müştərək "Kitabi-türki" adlı Azərbaycan dilində ilk dərs vəsaiti tərtib edir. Kitab gimnaziya və qəza məktəblərində uzun müddət istifadə olunub.

58 illik ömrünün böyük hissəsini ədəbi yaradıcılığa, maarif və mədəniyyətin inkişafına həsr edən Mirzə Şəfi Vazeh 28 noyabr 1852-ci ildə Tiflisdə dünyasını dəyişib və orada dəfn olunub.

**Savalan Fərəcov**

---

Xəbər verdiyimiz kimi, Cənubi Koreyanın Donqduk Qadınlar Universitetinin nəzdində fəaliyyət göstərən Avrasiya Türk Araşdırmaları İnstitutu (ATAİ) tərəfindən "Türk humanitar elmlər ensiklopediyası" nəşr olunub. Layihəyə ATAİ-nin direktoru professor xanım Eunkyunq Oh şəxsən rəhbərlik edib. Biz də çoxcildlik haqqında ətraflı məlumat almaq üçün Eunkyunq Oh ilə internet üzərindən əlaqə saxladıq.

# Koreyada "Türk humanitar elmlər ensiklopediyası" necə ərsəyə gəlib?

## Professor Eunkyunq Oh: "Bu nəşr layihəsi nəinki Koreyada, hətta dünyada bir ilkdir"

Eunkyunq Oh 1969-cu ildə Cənubi Koreyanın paytaxtı Seul şəhərində anadan olub. Ankaradakı Hacettepe Universitetində türk ədəbiyyatı və müqayisəli ədəbiyyat üzrə fəlsəfə doktoru (1999) və Özbəkistan Elmlər Akademiyasında isə elmlər doktoru elmi dərəcəsi (2014) və professor adı alıb.

Müsahibimizin bu günədək türkologiya məsələlərinə dair müxtəlif dillərdə 150-dən çox elmi məqaləsi və 40 kitabı çap olunub. Xüsusilə "Türk ədəbiyyatında Koreya savaşı" (türk və ingilis dillərində), "XX yüz il Türkiyə və Koreya ədəbiyyatında qadın" (türk, Azərbaycan, ingilis), "Türk və Koreya qəhrəmanlıq dastanlarının müqayisəli təhlili" (özbək, rus) və s. elmi araşdırma kitabları maraqla qarşılanıb.

O həmçinin Türkiyə yazıçıları Yaşar Kamalın, Murad Tuncelin əsərlərini, eləcə də Bəxtiyar Vahabzadənin şeir və poemalardan ibarət "Gülüstan" kitabını Koreya dilinə çevirib.

Bir müddət Koreya Prezidentinin müşaviri vəzifəsində də çalışmış Eunkyunq Oh hazırda Dongduk Qadınlar Universitetinin professoru, ATAİ-nin direktoru, ingilis dilində çap olunan "Avrasiya türkoloji araşdırmalar" jurnalının baş redaktorudur. O həmçinin Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvüdür.

*– Eunkyunq xanım, istərdim söhbətimizə tədqiqat sahənizdən başlayaq.*

– Mən türk ədəbiyyatını, folklorunu öyrənən türkşünasam. Orta məktəbdə oxuyanda türkşünaslığa marağım yaranmışdı. O vaxt mən çox mütaliə edən, ədəbiyyatı sevən bir qız idim. Həftəsonları "Oxu diskussiya klubu" təşkil edərək müzakirələr aparardıq. Müzakirələrə hazırlaşmaq üçün tez-tez Seuldakı böyük kitabxanaya baş çəkərdim. Ancaq həmin illərdə məlumatlar indiki kimi əlçatan deyildi. Bizə yalnız amerikan, ingilis, fransız və bəzi rus klassik ədiblərinin əsərləri təqdim olunurdu. Türk ölkələri haqqında hər hansı məlumat əldə etmək çətin idi. Düşünürdüm ki, türk ölkələrini öyrənməyə dəyər. Çünki bizim ölkə ilə mədəni oxşarlıqları, tarixi yaxınlıqları vardı. Beləliklə, türkologiya üzrə oxumağa qərar verdim. Lakin həmin dövrdə Koreyada türk dilinin tədris olunduğu yalnız bir təhsil ocağı var idi – Seuldakı Hankuk Xarici Dillər Universiteti. Bu universitetin Türkologiya fakültəsinə daxil oldum. Daha sonra Ankara şəhərindəki Hacettepe Universitetində türk ədəbiyyatı və müqayisəli ədəbiyyat üzrə magistratura və fəlsəfə doktoru təhsilimi bitirdim. Eyni zamanda müəllim olaraq çalışdım. Bundan əlavə, ölkəmizin MBC ictimai televiziya və radiosunun Türkiyədə müxbiri kimi fəaliyyət göstərdim.

*– Sonradan necə oldu Özbəkistana getdiniz?*

– Türkiyədə magistratura və doktorantura təhsilimi başa vurub vətənə qayıtsam da, Özbəkistana gedib türkologiya sahəsində biliklərimi genişləndirmək arzusu məni tərk etmirdi. 43 yaşımda özbək dilini öyrənməyə başladım və elmlər doktorluğu dissertasiyası müdafiə etdim. Mən Özbəkistanda elmlər doktoru dərəcəsi alan ilk əcnəbi həsab olunuram və bunu özüm üçün böyük şərəf sayıram.

*– "Türk humanitar elmlər ensiklopediyası" ideyası necə yarandı?*

– Tədqiqat rəhbəri kimi "Türk humanitar elmlər ensiklopediyası"nı hazırlayarkən əvvəlcə layihə üzrə məlumat bazasını qurduq. Bu işi həyata keçirmək üçün bütün yerli türkoloqları səfərbər etdim, eyni zamanda bir sıra ölkələrin tədqiqatçılarından da kömək aldım. Bu proses elə də asan deyildi. Çünki türk humanitar elmləri ilə bağlı məlumat və araşdırmalarda xeyli boşluqlar var idi.

Bilirsiniz, Türk dünyası ölkələrinin humanitar elmləri təkcə akademik dəyər baxımından deyil, həm də geosiyasi və iqtisadi münasibətlər sarıdan əhəmiyyətlidir. Bununla belə, ölkəmizdə hələ də geniş ictimaiyyətin türk ölkələri haqqında ilkin biliklərə belə yiyələnməsi çətindir. Bu vəziyyəti yaxşılaşdırmaq üçün, düşünürdüm ki, hər şeydən əvvəl, türkşünaslıq və əlaqəli humanitar elm sahələri üçün əlçatan olan bir lüğətə ehtiyacımız var.



"Türk humanitar elmlər ensiklopediyası" bu istiqamətdə humanitar elmlərin bütün sahələrinə aid əsas anlayışları ehtiva edən lüğətdir. Ensiklopediya Koreya Milli Tədqiqat Fondunun (National Research Foundation of Korea – NRF) maliyyə dəstəyi ilə ATAİ tərəfindən beş ildə (2018 – 2023) həyata keçirilən fundamental tədqiqat layihəsinin nəticəsidir. Nəşr Türk dünyası ölkələrinin – Türkiyə, Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, eləcə də Rusiya Federasiyasının Tatarıstan, Başqırdıstan, Altay, Xakasiya, Tuva, Saxa respublikaları və Çinin Sincan-Uyğur Muxtar Vilayətinin dili, ədəbiyyatı, tarixi, incəsənəti, coğrafiyası, folkloru və dinindən tutmuş bütün humanitar elm sahələrini əhatə edir. Koreya dilində hazırlanan 8 cildlik nəşr 2000-dən çox əsas söz olmaqla, ümumilikdə, 4500 səhifədən ibarətdir. Ensiklopediya həm çap, həm də elektron variantda mövcuddur.

*– Ensiklopediyanın hazırlanmasında hansı ölkələrdən müəlliflər təmsil olunub?*

– Mən də daxil olmaqla 21 müəllif ensiklopediyanın hazırlanmasında iştirak edib. Onlardan 20-si koreyalıdır. Bir özbək tədqiqatçı da sıramızda yer alıb. Təkcə mən 400-dən çox mövzunu işləmişəm. Ensiklopediyanın ümumi yazı və redaktəsinə də özüm cavabdeh idim. Bəzi mövzular üzrə məlumatları əldə etmək üçün əsasən Türkiyə, Azərbaycan və Özbəkistandan olan mütəxəssislərdən dəstək aldıq.

*– Azərbaycandan bu prosesə kimlər dəstək verdi?*

– Bu ensiklopediya koreyalı oxucular üçün nəzərdə tutulub. Koreyada Azərbaycan haqqında hər hansı məlumat əldə etmək çətindir. Ona görə də Azərbaycan alimlərindən ölkənizin ədəbiyyatı, folkloru, tarixi ilə bağlı başlıqların seçilməsində və məzmunların yazılmasında kömək istədik. Ensiklopediyanın yazılmasında məsləhətçi qismində Bakı Dövlət Universitetinin professoru Vaqif Sultanlı, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov və Folklor İnstitutu Beynəlxalq əlaqələr şöbəsinin müdiri Əli Şamil iştirak edirlər. Filologiya üzrə fəlsəfə doktoru Leyla Məsimli məlumatları Koreya dilinə tərcümə edib.

*– Mövzuları işləyərkən əsasən hansı mənbələrdən istifadə etmisiniz?*

– Bütün Koreya müəlliflərinin öz təcrübə sahələri var. Ensiklopediyanı hazırlayarkən tədqiq etdikləri sahələr üzrə ingilis, rus, türk, qazax, özbək və Azərbaycan dillərində materiallardan istifadə olunub.

*– Bu ilk təşəbbüsdür, yoxsa əvvəl də belə bir layihə olub?*

– Bu ensiklopediya nəinki Koreyada, hətta dünyada bir ilkdir. Yəni "Türk humanitar elmlər ensiklopediyası" hələ heç bir ölkədə nəşr olunmayıb. Onu da deyim ki, bir sıra ölkələrdən alimlər nəşri maraqla qarşılayıblar.

*– Nəşrin beynəlxalq aləmdə təbliği ilə bağlı nə kimi işlər görülüb?*

– Biz hələlik genişmiqyaslı tanıtım etməmişik. Ensiklopediyanın elektron variantını Azərbaycandakı Xəzər Universitetinin kitabxanasına, çap variantını isə Azərbaycan Milli Kitabxanası və Prezident Kitabxanasına göndərmişik. Nəşrin elektron variantı Prezident Kitabxanasının saytında da yerləşdirilib. Eyni zamanda ATAİ-nin, Beynəlxalq Türk Akademiyasının saytlarından, eləcə də "Koryo-saram" saytından da nəşri ödəniş etmədən yükləmək mümkündür.

*– Çoxcildliyin başqa dillərə tərcüməsi barədə düşünürsünüzmü?*

– Mövcud ensiklopediyaya əlavələr etsək və ingilis dilində genişləndirilmiş variantını çap etsək, bu bütün dünyada insanların istifadə edə biləcəyi bir sərvətə çevriləcək. Ensiklopediyanın ingilis dilinə tərcüməsi ilə bağlı çoxlu sifarişlər almışıq. Ancaq bu iş üçün maddi dəstəyə ehtiyac var.



*– Koreyanın təhsil ocaqlarında tədrisi təşkil oluna bilərmi?*

– Ensiklopediya Koreya ictimaiyyətini türk xalqları haqqında məlumatlandırmaq baxımından diqqətəlayiq layihədir. Özbəkistan Təhsil Nazirliyində nəşrin ibtidai, orta, lisey və Koreya dilini tədris edən universitetlərdə tədrisi planlaşdırılır. Ümid edirəm ki, bu lüğətdən başqa ölkələrdə də müxtəlif sahələrdə istifadə olunacaq.

*– Bir qədər də rəhbəri olduğunuz Avrasiya Türk Araşdırmaları İnstitutu barədə məlumat verərdiniz.*

– 2016-cı ilin fevral ayında Dongduk Qadınlar Universitetinin nəzdində Avrasiya Türk Araşdırmaları İnstitutunu qurduq. Bu, Koreyada türkşünaslıq üzrə yeganə tədqiqat institutudur. İnstitutda Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan və digər türk respublikaları ilə bağlı araşdırmalar aparılır. İldə iki dəfə türk və özbək dili dərsləri keçirik. Ayda bir dəfə isə Koreyada türk ölkələri ilə bağlı mövzularda araşdırma aparan professorlarla kollokvium təşkil edirik. Biz bəzən şirkətləri və keçmiş diplomatları da ekspert mühazirələrinə dəvət edirik, həmçinin xarici universitetlər və ya səfirliklərlə birgə akademik konfranslar gerçəkləşdiririk.

İnstitut Koreyada ilk və yeganə türkşünaslıq mərkəzi olduğu üçün ölkə daxilindən və xaricdən alimlər böyük maraq göstərirlər. İnstitutun yaradılması və maliyyə vəsaitinin alınması üçün mən çox zəhmət çəkmişəm. Amma sevinirəm ki, buna nail olmuşam. Təqaüdə çıxmazdan əvvəl, ümid edirəm ki, təcrübəmi və apardığım araşdırmaların nəticələrini Koreyadakı tələbələrə ötürə biləcəyəm.

*– ATAİ Azərbaycanda hansısa elmi qurumla əməkdaşlıq edirmi?*

– Azərbaycana ilk səfərim 2016-cı ilin fevralında olub. O zaman mənə Bakı Dövlət Universitetinin professoru Vaqif Sultanlı kömək edirdi. Bundan sonra Azərbaycan dilini dərindən öyrənməyə qərar verdim. Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycanın Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) ADA Universitetində təşkil olunan proqramında iştirak etmişəm. Biz bir neçə universitetlə memorandum imzalamış və mübadilələrə başlamışıq.

Bundan başqa, ölkələrimizin 30 illik diplomatik münasibətləri tarixində ilk dəfə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə birgə Azərbaycan-Koreya Humanitar Forumunu keçirdik. Birinci və ikinci forumlar pandemiya ilə əlaqədar onlayn təşkil edilib. Üçüncü konfrans isə Bakıda gerçəkləşdi. Ümid edirəm ki, Azərbaycanla əməkdaşlığımız davamlı olacaq.

**Nurəddin Məmmədli**

---

Pressfakt

# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən...

Mətbu səhifələrdən seçmələrdə bu dəfə "Mədəniyyət" qəzetinin arxivinə nəzər saldıq. 33 il əvvəl qəzetdə dərc olunan yazılardan biri teatrların yaradıcılıq hesabat-planları barədədir. Bir qərinə öncə olduğu kimi, repertuar seçiminə yanaşma, mənəvi-əxlaqi problemlərin səhnə təcəssümü kimi məsələlər indi də aktualdır.

### Tamaşaçını nə gözləyir?

Əməkdaşımız yaradıcılıq qayğıları, cari repertuarı, gələcək planlarla bağlı teatr kollektivlərinə müraciət etmişdir.

Həsən Turabov (M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının bədii rəhbəri və direktoru):

– Teatrın binasında əsaslı təmir getməsinə baxmayaraq, kollektiv qaynar yaradıcılıq prosesindən soyumamışdır. Son vaxtlar Naxçıvan Muxtar Respublikasının, Qutqaşenin (indiki Qəbələ – red.), Goranboyun, Lənkəran-Astara ərazisinin, Bakı kəndlərinin və başqa rayonların zəhmətkeşləri qarşısında yaradıcılıq hesabatları vermişik.

Repertuarımızı həmişə olduğu kimi yeni tamaşalarla zənginləşdirəcəyik. Komediya ustası Sabit Rəhmanın "Yalan" əsərinə yenidən qayıtmışıq. Mənəvi-əxlaqi problemlərə toxunan bu əsərin tamaşası ilə dramaturqun anadan olmasının 80 illiyini qeyd edəcəyik. Tamaşaçılar görkəmli dramaturq İlyas Əfəndiyevin "Tənha iydə ağacı" adlı yeni pyesi ilə də tanış olacaqlar. Yazıçı bu əsərində azərbaycanlı mühacirlərin taleyindən danışır. Hər iki quruluş Əməkdar incəsənət xadimi M.Fərzəlibəyovundur.

Rejissor Bəhram Osmanov Xalq şairi B.Vahabzadənin "Hara gedir bu dünya?" dramını hazırlayır. Müəllif əsərdə ziddiyyətli, ağrılı-acılı dünyamızı, cəmiyyətimizin səhifələrini canlandırır.

Fiqeyredonun "Ezop" pyesinə isə respublikanın Əməkdar artisti Həsən Əbluc quruluş verəcəkdir.

SSRİ Mədəniyyət Nazirliyinin sifarişi ilə rejissor Vaqif Həsənov "Ağa Məhəmməd şah Qacar" (Ə.Haqverdiyev) faciəsini tamaşaya qoyacaqdır. İ.Əfəndiyevin "Hökmdar və qızı", Q.Lorkanın "Don Bernardo Anba" (tərcümə T.Elçinindir) pyesləri gələcək repertuara daxildir.

***

Ağakişi Kazımov (M.Qorki adına Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının baş rejissoru):

– Teatrımız 60 illik yubiley ərəfəsindədir. Teatrın kollektivi binasızlıq üzündən on il ağır şəraitdə işləmək məcburiyyətində qalmışdır. Bu da aktyorların ovqatına, fiziki hazırlığına mənfi təsir göstərmiş, bəzilərinin sənətkarlıq vərdişlərinin yadırğamasına səbəb olmuşdur.

A.Şaiq yaradıcılığına qayıtmağı özümüzə mənəvi borc bilirik. Teatrın təşəkkülü bu yazıçının dramaturgiyası ilə six bağlıdır. Rejissor M.Tağıyev onun "Bir saat xəlifəlik" əsərini hazırlayacaqdır. Mən Qərbi Avropa dramaturgiyasının klassiki Lope de Veqanın "Çoxbilmiş sevgilim" pyesinin quruluşu üzərində iş aparıram. Respublikanın Əməkdar artisti A.Salmanov tanınmış yazıçı Q.İlkinin kiçikyaşlı tamaşaçılar üçün qələmə aldığı "Qarışqa şıllaq atdı" nağıl-pyesinə quruluş verəcəkdir.



Qarşıdakı yubiley məsuliyyət hissimizi artırır, bizi yeni axtarışlara, şüarsız, boyasız tamaşalar yaratmağa, gənc nəslə əbədi həqiqətlərdən danışmağa səsləyir.

*"Mədəniyyət", 23 yanvar 1991-ci il*

# “Primanın irsi” filmi nümayiş olundu

Nizami Kino Mərkəzi. Yanvarın son günü. Ardıcıl üç gündür (29–31 yanvar) burada Azərbaycan baletinin görkəmli simalarının ömür və yaradıcılıq yolu haqqında filmlərin təqdimatı keçirilir.




Silsilənin sonuncu filmi ilk azərbaycanlı balerina, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Qəmər Almaszadəyə (1915–2006) həsr olunub.

“Primanın irsi” adlı filmin nümayişi mərkəzin kiçik zalında keçirilsə də, tamaşaçıların böyük marağı var. Zalda boş oturacaq yoxdur.

Tamaşaçılar arasında balerinanın tələbələri, onun sənətini sevənlər üstünlük təşkil edir. Filmin müəllifi və rejissoru, tanınmış balet ustası, Əməkdar artist Samir Səmədov da həyəcanlı görünür. Zalda hər kəs yerini alandan sonra o, səhnəyə çıxır və film haqqında məlumat verir.

“Primanın irsi” sənədli filmində Qəmər Almaszadənin həyat və yaradıcılığı geniş şəkildə öz əksini tapıb. Ekran işində qeyd olunur ki, görkəmli sənətkar professional səhnəni tərk etdikdən sonra Akademik Opera və Balet Teatrının baş baletmeysteri, Bakı Xoreoqrafiya Məktəbinin (indiki BXA) direktoru kimi fəaliyyət göstərib. Kadrlarda ilk milli balerina və xoreoqrafın yaradıcılığından, onun ən istedadlı tələbələrindən, Azərbaycan baletinin əfsanəvi primalarından söhbət açılır. Bildirilir ki, Qəmər Almaszadə Azərbaycan bəstəkarlarının əksər baletlərində, o cümlədən Qara Qarayevin “Yeddi gözəl” və Əfrasiyab Bədəlbəylinin “Qız qalası” baletlərində ilk dəfə baş partiyaları ifa edib. Azərbaycanda balet məktəbinin inkişafına böyük töhfə verən sənətkar tanınmış ifaçılar nəslini yetişdirib. Onun sənət məktəbinin məzunları bir sıra ölkələrin məşhur səhnələrində çıxış ediblər. Sənədli filmdə balerinanın yetirmələrinin iştirakı ilə müxtəlif illərin nadir kadrları tamaşaçılara təqdim olunur.

Filmin nümayişindən sonra Əməkdar incəsənət xadimi Rimma Məmmədova çıxış edərək filmin müəllifinə təşəkkürünü bildirdi. O, 1960-cı ildə Bakı Xoreoqrafiya Məktəbində Qəmər Almaszadənin sinfini bitirdiyini dedi, müəllimi ilə bağlı xatirələrini bölüşdü. Qeyd etdi ki, onu 1978-ci ildə məhz Qəmər xanımın Mədəniyyət Nazirliyinə tövsiyəsi ilə Bakı Xoreoqrafiya Məktəbinə direktor təyin ediblər.

Daha sonra qonaqlar arasında yer alan filmin qəhrəmanları və ailə üzvləri milli balet tarixinə qayğıkeş münasibətə görə müəllifə təşəkkürlərini bildirdilər.

Qeyd edək ki, premyerası ötən ilin mart ayında Bakı Musiqi Akademiyasının Opera studiyasında gerçəkləşən film həm də rus dilində səsləndirilib.

**Lalə Azəri**

# Səhnə ona görə bir pillə yuxarıdadır ki...

## Teatr-tamaşa müəssisələri ilə bağlı Ekspert şurasından gözləntilər nədir?

Bu gün teatrın məqsəd və vəzifələri, təbliğ etdiyi dəyərlər sistemi və ideya istiqamətləri barədə çox danışılır. Ki bunların da heç biri yeni müzakirə deyil. Hamımız bilirik ki, bütünlükdə dünya ölkələrində teatr və onun formalaşma prosesi təxminən eyni meyarlar üzərində gedib. Sözsüz, bu da ayrı məqamdır ki, inkişaf etmiş, yəni peşəkarlaşmış teatr bir təsisat olaraq daim yüksək mədəniyyətə malik cəmiyyət üçün xarakterik olub. Belə olduqda, deməli, teatr bütün zamanlarda maarifçi, bu fikri ideoloji buxovdan çıxarsaq, əyləndirməklə öyrədici funksionallıqda özünü göstərib. Bu xüsusda əsas meyar da mədəniyyət və onun tərkib hissəsi kimi mənəviyyatı ön plana çəkməkdir.

Sənətlə maraqlananlar yəqin son günlər Mədəniyyət Nazirliyinin bu məsələ ilə bağlı irəli sürdüyü ideyadan və onun ümumiləşmiş təzahür faktı kimi nazirlik yanında teatr-tamaşa müəssisələri ilə bağlı Ekspert şurasının yaradılmasından xəbərdardır.

Şura Mədəniyyət Nazirliyinin tabeliyində olan teatr-tamaşa müəssisələri tərəfindən təklif edilmiş illik repertuarların və dövlət sifarişi əsasında hazırlanan tamaşaların müvafiq teatrların profilinə, onların milli-mənəvi dəyərlərə, vətəndaş, cəmiyyət və dövlətin maraqlarına, sahə üzrə qabaqcıl təcrübəyə və keyfiyyət meyarlarına uyğunluğunun təmin edilməsinə bir növ ictimai nəzarəti həyata keçirməlidir.

Artıq bir neçə dəfə toplaşan şura üzvləri müəyyən fikir mübadilələri edir, mexanizmlər, şuranın hüquq və vəzifələri ətrafında müzakirələr aparırlar. Doqquz nəfərdən ibarət şurada yer alan teatr sahəsindən insanların ilkin təəssüratından da aydın olur ki, belə bir təsisat, dövrün tələbi olmaqla yanaşı, həm də teatrların ümumi inkişafına, onların istehsal etdikləri məhsulların bədii keyfiyyətinə müsbət təsir göstərəcək.

***

Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor **İsrafil İsrafilov** rəhbəri olduğu şura və onun ilkin təyinləri haqqında danışmazdan öncə hazırkı teatr prosesinə qısa nəzər saldı: “Deməliyəm ki, bütövlükdə, milli teatrımızın tənəzzül halı yaşaması təzə xəbər deyil. Təkcə mütəxəssislərin deyil, teatral tamaşaçıların da müşahidə etdiyi proseslərin mədəniyyət sahəsi üçün də xüsusi önəm daşıyan milli maraqlara xidmət etmədiyi faktı açıq-aşkardır. Yazılmamış həqiqətlərdən biri olaraq səhnə sənətində kadr və repertuar siyasətinin fövqəladə əhəmiyyət daşıdığını nəzərə alsaq, ölkəmizdə fəaliyyət göstərən dövlət teatrlarının repertuar siyasətinə diqqətin artırılması zərurətinin məntiqi aydınlaşar və effektiv olar”.

### Burada nəzarət senzura anlamında deyil

Şurada təmsil olunan Əməkdar incəsənət xadimi, teatrşünas, professor **Məryəm Əlizadə** isə belə bir ideyanın arzulanan olduğunu bildirdi: “İlk əvvəl onu deyim ki, əslində, nəzarət anlayışından çox uzaq olan bu şura senzor xarakteri daşımır. Teatrlarımız müstəqil fəaliyyət göstərir, yaradıcılıqla məşğul olur. Heç buna nəzarət də mümkün deyil. Hörmətli nazirimiz də bizimlə görüşündə teatr-tamaşa müəssisələrinin bugünkü vəziyyəti ilə bağlı mənzərəni elə aydın təhlil etdi ki, bu, şəxsən məni çox sevindirdi. Bizim dialoqumuz alındı və hamımız bu görüşdən məmnun qaldıq. Çünki o da bizi narahat edən məsələlərin üzərinə vurğu vurur. Bu şurada teatr xadimləri və mütəxəssisləri, bundan başqa, fərqli istiqamətlərdən mütəxəssislər təmsil olunurlar. Sosioloq, psixoloq, rəssam, ailə, qadın və uşaq problemləri ilə bağlı müvafiq qurumdan təmsilçi də var. Bu, özlüyündə məsələyə formal yox, əhatəli, miqyaslı və dərin yanaşmaya işarədir.



Əsasnamə layihəsində də məsələyə peşəkar baxış görünür. Hazırda əsasnamə üzərində hüquqşünaslarla sıx əlaqədə işləyirik. Məqsəd, təbii ki, bədii səviyyəni yüksəltmək, keyfiyyətin yüksəlməsilə müasir dövrün tələblərinə uyğun mövzuların teatr məhsuluna çevrilməsinə səy göstərməkdir. Bayağılığa qarşı olan bu şura həm də azərbaycançılıq məfkurəsini qabartmağa, diletantlıqdan xilasa çağırışdır. Bu mənada nəzarət sözü unudulmalıdır. Çünki bu şuranın məqsədi o deyil.

Repertuara sanballı əsərlər gəlməli, yeni nəsil dramaturqlarının yaradıcılığı tanıdılmalı və bununla bağlı müsabiqələr keçirilməli, seçilən nümunələr səhnəyə yol tapmalı, klassiklərdən də ən yaxşılar sıralanmalıdır. Yəni repertuar professional mövqedə olmaqla iş qurmalıdır. Bizim də məqsədimiz teatrlarımıza kömək etməkdir. Teatrlarda bir bədii platforma olmalıdır. Repertuar formalaşdırılarkən onun məqsəd və məramı da ayırd edilməlidir. Baxırıq və bəzən tələm-tələsik hazırlanıb, nazirliyə təqdim olunmuş repertuar planı görürük. Arabir sual da yaranır: bu pyes Azərbaycan tamaşaçısına nə verə bilər? Təəssüf ki, cavab da tapılmır. Bax, belə məsələlər bizim şura tərəfindən araşdırılacaq və çalışacağıq ki, repertuar siyasəti gücləndirilsin. Bir daha təkrar edirəm: qurumun əsas amalı teatrın daha da inkişafına nail olmaqdır və bilimləyik ki, bu, yüksək bədii səviyyəli dramaturgiyaya əsaslanan repertuardır. İndi əsas bunu gücləndirək. Sonra şura qarşısında daha başqa məsələlər dayanacaq”.

***

Əməkdar incəsənət xadimi, teatrşünas **Aydın Talıbzadə** isə məsələyə bir qədər fərqli istiqamətdən baxır və fikrini teatr-tamaşaçı münasibətinin tənzimlənməsi ilə əsaslandırır: “Ancaq bir kiçik nöqsanı diqqətinizə çatdırmaq istərdim: məncə, “teatr-tamaşa müəssisəsi” bir ifadə kimi məntiqi səslənmir; teatrda tamaşa göstərilər, tamaşa oynanılan yer isə teatr adlanar, yəni tavtologiya var burda. Görünür, bunu düzəltmək lazım gələcək.

Şuraya gəlincə, o, Azərbaycanda teatrların fəaliyyətini gücləndirməyə, tamaşaların bədii-estetik keyfiyyətini yüksəltməyə, teatr düşüncəsini kardinal şəkildə XXI yüzilə gətirməyə yardımçı olacaq, dəstək olacaq bir Ekspert surası kimi yaradılıb. Əlbəttə ki, onun boynuna bir nəzarət funksiyası da düşür. Amma bu, heç də senzura demək deyil. Biz hamımız teatr cameəsi olaraq bir mərama xidmət eləyirik: Azərbaycan teatrı özünün bütün səhnələrində dünyanı, Azərbaycanı, dövlətçiliyimizin prioritetlərini, milli-mənəvi dəyərləri, XXI əsri, müasir insanın ekzistensial problemlərini, yaşantılarını yüksək bədii dillə, plakatçılığa, klişe ifadələrə, pafosa, yalana uymadan yansıda bilsin. Axı dünya bəşəri özündə, özünü hər şeydə görüb dərk etmək baxımından əbədi və hüdudsuzdur. Mənim üçün bir ekspert kimi, ilk növbədə, teatrın strategiyası, inkişaf konsepsiyası və bədii-estetik platforması mühümdür. Sən bu gün kimə və nə üçün lazımsan? Mən niyə axşam vaxtı bir çox maraqlarımdan imtina edib məhz teatra gəlməliyəm? Teatrın cəmiyyətə ötürdüyü mesajlar nə qədər aktualdır? Ekspert şurasının teatrlar qarşısında qoyduğu tələblər, həqiqətən, çox ciddidir. Əsas tələb repertuarın günümüzə, həyatımıza, gerçəkliyimizə, yaşantılarımıza adekvatlığıdır, yaradıcı prosesə münasibət aliliyinin bütün istiqamətlərdə təmin olunmasıdır, hədəf auditoriyanın seçilməsidir. Çünki seyrçi tamaşanın məhz yaradıcı komponentlərindən biridir. Çox danışa bilərəm, amma fikirləşirəm ki, əməl sözdən öndə olmalıdır. Bu kontekstdə düşünürəm ki, Mədəniyyət Nazirliyi son dərəcə qutsal bir aksiyaya imza atıb”.

### Ekspert şurası bədii şuraların işini təkrarlamır

Teatr üzrə ekspert, ADMİU-nun müəllimi **Tərlan Rəsulov** məsələyə teatrlardakı bədii şuralardan başlamaqla münasibət bildirməyi üstün tutdu. Bu yerdə onu deyək ki, əksər teatrların bədii şuralarında tanınmış teatr, ədəbiyyat və incəsənət xadimləri təmsil olunurlar. Yəni həmin bədii şuralardakı əksər adlar bu sahəyə hali insanlardır. Elə isə niyə onların proseslərə real təsiri görünmür. Belə olan halda bir çoxlarında o şuralarda formal təmsil olunduğu qənaəti yaranır. Eksperti dinləyək: “Bir çox teatrlarda yaradılmış bədii şuraların formal olması barədə məndə məlumat yoxdur. Düzü, inanmıram ki, bu, hansısa bir teatr-konsert müəssisəsində olsun. Çünki, siz özünüz qeyd etdiyiniz kimi, bizim mədəniyyət və incəsənət sahəsinin görkəmli nümayəndələri bu şuraların üzvləridir. Onlar hər biri öz üzərinə düşən məsuliyyəti tam olaraq anlayır və hər biri, ilk növbədə, ölkə mədəniyyətinin inkişafını düşünür. Həmin bədii şuranın üzvləri təkcə incəsənət xadimləri kimi deyil, həmçinin cəmiyyətin nümayəndələri kimi də iştirak edirlər. O ki qaldı Mədəniyyət Nazirliyi yanında yaradılan Ekspert şurasına, bu qurum heç də bədii şuraların işini təkrarlamır. Burda tamam başqa formatda iş görüləcək. Burada Mədəniyyət Nazirliyinə ümumi repertuar siyasətinin qurulması, dövlət teatrlar sisteminin tənzimlənməsi, dövlət sifarişləri ilə quruluş verilən tamaşaların yaradıcı, milli ideologiya, mənəvi dəyərlər baxımından lazımi tələblərə cavab verməsi barədə mütəxəssis rəylərinin, tövsiyələrin verilməsi nəzərdə tutulur. Şura öz işinə yenicə başlayıb. Hər hansı bir nəticə və ya fikir demək tezdir. Amma bircə onu qeyd edə bilərəm ki, teatr sahəsi ilə bağlı edilən istənilən addım, iş bu sahənin inkişafına gətirəcək”.

***

Fikirlərdən o da görünür ki, bu məqamda teatr sosiologiyasına da böyük ehtiyac var. Bu gün teatr həm də tamaşaçısının kim olduğunu bilməlidir. Yəni öyrənməlidir ki, onu nə maraqlandırır? Bu gün cəmiyyət, dövlət üçün, vətəndaş üçün maraqlı olan hansı mövzulardır və onlar bizim milli-mənəvi dəyərlərimiz kontekstində səhnədən tamaşaçı salonuna necə ötürülür? Hansı repertuar sayəsində ötürülür? Bütün bunlar çox vacib məqamlardır.

O da aydın görünür ki, şura qarşısında çox ciddi tələblər qoyulub və inanaq ki, peşəkarların bir araya gəldiyi bu platforma işin öhdəsindən gələcək.

Öz işinə repertuara baxışla başlayan şura, yəqin ki, gələcəkdə teatrın digər bədii problemlərinə də nəzər salacaq, sənət ocaqları ilə birgə onların bədii səviyyəsinin yüksəlməsində həmfikir kimi fəaliyyət göstərəcək.

Necə deyərlər, səhnə tamaşaçısından bir pillə yuxarıdadırsa, onun təlqin elədiyi dəyərlər də o səviyyədə olmalıdır...

**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 4–8 fevral

### Azərbaycan

**4 fevral 1945** – Əməkdar rəssam Fərman Səməd oğlu Qulamov (1945 – 23.12.2016) Astara rayonunda doğulub. Əsərləri Moskvada Tretyakov Qalereyasında, Şərq Xalqları İncəsənət Muzeyində saxlanılır. Dövlət Rəssamlıq Akademiyasının müəllimi olub.

**4 fevral 1982** – Xalq artisti, teatr rejissoru, aktyor İbrahim (Miribrahim) Tağı oğlu Həmzəyev (25.12.1908 – 1982) vəfat edib. 1937-ci ildən Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb, teatrın direktoru, baş rejissoru olub.

**4 fevral 2015** – Prezident İlham Əliyev Azərbaycan balet məktəbinin yaradıcılarından biri, SSRİ Xalq artisti Qəmər Hacıağa qızı Almaszadənin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**4 fevral 2019** – Prezident İlham Əliyev Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi, Xalq artisti Seyid Şuşinskinin 130 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**5 fevral 1918** – Böyük bəstəkar, pedaqoq, akademik, SSRİ Xalq artisti, dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Qara Əbülfəz oğlu Qarayev (1918 – 13.5.1982) anadan olub. “Yeddi gözəl”, “İldırımlı yollarla” baletləri, simfoniyalar, “Don Kixot” simfonik qravürü, “Leyli və Məcnun” simfonik poeması, digər musiqi əsərlərinin müəllifidir. “Uzaq sahillərdə”, “Onun böyük ürəyi”, “Nizami” və s. filmlərə musiqi yazıb. 30 ilə yaxın Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərlik edib.

**5 fevral 1923** – Əməkdar artist, tarzən Baba Əliheydər oğlu Salahov (1923 – 12.8.1981) anadan olub. Azərbaycan Televiziyası və Radiosunun “Araz” Xalq çalğı alətləri ansamblı sənətkarın adını daşıyır.

**5 fevral 1930** – Xalq artisti, görkəmli xanəndə Əlibaba Balaəhməd oğlu Məmmədov (1930 – 25.2.2022) Bakının Maştağa kəndində doğulub. Milli muğam sənətinin inkişafına dəyərli töhfələr verib, mahnı və təsniflərin müəllifidir.

**5 fevral 1939** – Xalq yazıçısı, dramaturq, ssenarist, Dövlət mükafatı laureatı Rüstəm Məmməd İbrahim oğlu İbrahimbəyov (1939 – 11.3.2022) Bakıda anadan olub. 30-dan çox filmin (“Səhranın bəyaz günəşi”, “Ad günü”, “İstintaq”, “Özgə ömür”, “Ölsəm... bağışla” və s.) ssenari müəllifidir. Pyesləri teatrlarda tamaşaya qoyulub.

**5 fevral 1942** – Teatr xadimi Ağakərim Səftər oğlu Şərifov (1895-1942) vəfat edib. C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin yaradıcısı və direktoru olub. Bakı Teatr Məktəbində dərs deyib, milli teatr tarixinə dair kitabın müəllifidir.

**5 fevral 1963** – Əməkdar artist, Dövlət mükafatı laureatı Münəvvər Səməd qızı Kələntərli (1912-1963) vəfat edib. 1933-cü ildən səhnə fəaliyyətinə başlayıb, Opera və Balet, Musiqili Komediya teatrlarında çalışıb. “Arşın mal alan” (1945), “Bəxtiyar”, “Görüş”, “O olmasın, bu olsun” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**5 fevral 1996** – Prezident Heydər Əliyev Xalq yazıçısı, görkəmli ictimai-siyasi xadim Mirzə İbrahimovun xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam imzalayıb.

**6 fevral 1924** – Xalq artisti Firəngiz Abbas Mirzə qızı Şərifova (1924 – 20.2.2014) anadan olub. Uzun illər Gənc Tamaşaçılar Teatrında çalışıb. “Qərib cinlər diyarında”, “Ən vacib müsahibə”, “Bayquş gələndə”, “Qətl günü” və s. filmlərdə çəkilib.

**6 fevral 1927** – Xalq artisti, rejissor, aktyor Lütfi Şahbaz oğlu Məmmədbəyov (1927 – 1.2.2004) Ağdaşda doğulub. 50-dək televiziya tamaşasına quruluş verib. “Qızmar günəş altında”, “Səhər”, “Sehrli xalat” və s. filmlərdə çəkilib.

**6 fevral 1950** – Xalq artisti, xanəndə Ağaxan Minəxan oğlu Abdullayev (1950 – 25.12.2016) Bakının Əmircan kəndində anadan olub. 1977-ci ildən yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olub.

**6 fevral 2009** – Prezident İlham Əliyev Xalq yazıçısı Mehdi Hüseynin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**6 fevral 2012** – Prezident İlham Əliyev görkəmli bəstəkar, SSRİ Xalq artisti Fikrət Əmirovun 90 illik yubileyi haqqında sərəncam imzalayıb.

**6 fevral 2013** – Prezident İlham Əliyev Xalq yazıçısı Ənvər Məmmədxanlının 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**7 fevral 1919** – Xalq artisti, görkəmli kinorejissor Tofiq Mehdiqulu oğlu Tağızadə (1919 – 27.8.1998) anadan olub. “Görüş”, “Uzaq sahillərdə”, “Arşın mal alan” (1965), “Yeddi oğul istərəm”, “Dədə Qorqud”, “O dünyadan salam” və s. filmləri ilə milli kinomuza dəyərli töhfələr verib.

**7 fevral 1922** – Görkəmli rəssam, qrafika ustası Bəhruz Şirəli bəy oğlu Kəngərli (22.1.1892 – 1922) vəfat edib.

**7 fevral 1941** – Azərbaycan rəqqaslıq sənətinin tanınmış nümayəndəsi, Əməkdar artist Aliyə Allahqulu qızı Ramazanova (1941 – 1.9.2023) Qusar rayonunda doğulub. Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının solisti olub.

**7 fevral 2017** – Prezident İlham Əliyev görkəmli bəstəkarlar, Xalq artistləri Cövdət Hacıyevin və Tofiq Quliyevin 100 illik yubileyləri haqqında sərəncamlar imzalayıb.

**8 fevral 1928** – Əməkdar memar Nazim Məmməd oğlu Hacıbəyov (1928 – 23.3.2020) Bakıda doğulub. “Gülüstan” sarayının layihəsinə görə respublika Dövlət mükafatına (1982) layiq görülüb. Azərbaycan Memarlar İttifaqı sədrinin birinci müavini olub.

**8 fevral 1929** – Xalq rəssamı Məmmədağa Hüseynağa oğlu Hüseynov (1929 – 20.1.2002) Bakıda doğulub. Kino rəssamı kimi tanınıb, 20-dən çox filmə (“Səhər”, “Böyük dayaq”, “Əhməd haradadır?”, “Bizim Cəbiş müəllim” və s.) bədii tərtibat verib.

**8 fevral 1992** – Görkəmli bəstəkar, Xalq artisti, professor Əşrəf Cəlal oğlu Abbasov (23.3.1920 – 1992) vəfat edib. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının rektoru (1953-1957) olub.

**8 fevral 2018** – Xalq artisti Zərnigar Fəti qızı Ağakişiyeva (7.11.1945 – 2018) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, televiziya tamaşalarında, filmlərdə maraqlı obrazlar yaradıb.

**8 fevral 2022** – Əməkdar rəssam, pedaqoq Fikrət Məmməd oğlu Həşimov (19.2.1948 – 2022) vəfat edib. Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecinin direktoru olub.

**8 fevral 2022** – Əməkdar mədəniyyət işçisi, AMEA Əlyazmalar İnstitutunun baş rəssamı, miniatürçü Fəxrəddin Vəli oğlu Əli (10.5.1938 – 2022) vəfat edib.

### Dünya

**4 fevral 1873** – Rus yazıçısı Mixail Mixayloviç Prişvin (1873–1954) anadan olub.

**4 fevral 1915** – İngilis aktyoru, “mister Pitkin” haqqında kinokomediyalarda baş rolun ifaçısı Norman Uizdom (Norman Joseph Wisdom; 1915–2010) anadan olub.

**5 fevral 1810** – Norveç milli musiqi məktəbinin banilərindən biri, bəstəkar, skripkaçı Ule Bull (Ole Borneman Bull; 1810–1880) anadan olub.

**5 fevral 1914** – Amerika yazıçısı Vilyam Stüard Berrouz (William Seward Burroughs; 1914–1997) anadan olub.

**6 fevral 1894** - Gürcü kinorejissoru və ssenaristi, SSRİ Xalq artisti Mixail Edişeroviç Çiaureli (1894-1974) anadan olub.

**6 fevral 1932** – Fransız aktyoru və rejissoru, kino sənətində “yeni dalğa”nın banilərindən biri Fransua Trüffo (François Roland Truffaut; 1932–1984) anadan olub.

**7 fevral 1812** – İngilis yazıçısı Çarlz Dikkens (Charles John Huffam Dickens; 1812–1870) anadan olub. “Oliver Tvistin macəraları”, “Devid Kopperfild”, “Dombi və oğlu” və s. romanların müəllifidir.

**7 fevral 1885** – Amerika yazıçısı, ədəbiyyat üzrə ilk amerikalı Nobel mükafatı laureatı (1930) Sinkler Lyuis (Sinclair Lewis; 1885–1951) anadan olub.

**7 fevral 1929** – Türk şairi və aktrisası Könül (Gönül) Aysel Gürel (1929 – 17.8.2008) anadan olub. Populyar mahnıların sözlərinin müəllifidir.

**8 fevral 1828** – Fransız yazıçısı, səyyah Jül Vern (Jules Gabriel Verne; 1828 – 24.3.1905) anadan olub. “Kapitan Qrantın uşaqları”, “80 gün dünya ətrafında” və s. əsərlərin müəllifidir.

**8 fevral 1928** – Rus aktyoru, SSRİ Xalq artisti Vyaçeslav Vasilyeviç Tixonov (1928 – 4.12.2009) anadan olub. “Baharın on yeddi anı” teleserialında Ştirlis rolu ilə şöhrət qazanıb. “Hərb və sülh”, “Qara qulaq ağ Bim” və s. filmlərdə çəkilib.

**Hazırladı: V.Orxan**

# Virtuoz skripkaçı Moskva səhnəsində

## Elvin Xoca Qəniyev: "Şuşada da konsert vermək istəyirəm"

Xəbər verdiyimiz kimi, azərbaycanlı virtuoz skripka ifaçısı, Əməkdar artist Elvin Hoca Qəniyev fevralın 2-də Moskvada, "Zaryadye" konsert salonunda ilk dəfə çıxış edib.





Həmvətənimizin çıxışı sürəkli alqışlarla qarşılanıb.

İfaçı Rusiya paytaxtının möhtəşəm konsert salonunda P.Çaykovski adına Dövlət Akademik Böyük Simfonik Orkestri ilə eyni səhnəni bölüşməkdən qürur duyduğunu qeyd edib. "Bu konsertə çox böyük səylə hazırlaşırdım. Orkestrin də Erkinin musiqisini dərindən duyduğunu hiss etdim. Dirijor Marius Stravinskinin Erkinin əsərinin ifasına intellektual yanaşması məni valeh etdi. Tamaşaçılar arasında azərbaycanlılar və türkləri görməkdən, Azərbaycanın Xalq artisti Polad Bülbüloğlunun təbriklərini qəbul etməkdən çox məmnun qaldım", – deyə o jurnalistlərə açıqlamasında bildirib.

Elvin Xoca Qəniyev Bakıda, Azərbaycan Dövlət Akademik Filarmoniyasında konsertlərlə çıxış etməyi planlaşdırdığını qeyd edib: "Azərbaycan bəstəkarlarının skripka üçün bütün əsərlərindən ibarət silsilə disklər buraxmağı da düşünürəm. Bunun üçün mükəmməl akustikaya malik konsert zalı və müasir studiya olmalıdır. Ehtimal ki, konsertləri hazırda təhsil aldığım Almaniyada lentə alacağam".

Elvin Xoca Qəniyev Qarabağa səfər etməyi, Şuşada konsert verməyi arzuladığını da dilə gətirib: "Babam (mərhum Xalq artisti, görkəmli skripka ifaçısı Sərvər Qəniyev – red.) əslən Şuşadandır. Təəssüf ki, hələlik Şuşaya getmək imkanım olmayıb. Çox istərdim Azərbaycan incisi Şuşada Qara Qarayevin skripka və orkestr üçün konsertini ifa edim. Bu əsərdəki qəhrəmanlıq motivləri və mübarizlik ruhu, düşünürəm ki, azad Qarabağın tarixi və bu günü ilə bahəm səslənəcək".

Gənc musiqiçi P.Çaykovski adına Dövlət Akademik Böyük Simfonik Orkestrinin müşayiəti ilə görkəmli Türkiyə bəstəkarı Ülvi Camal Erkinin (1906–1972) skripka üçün konsertini və amerikalı bəstəkar Frans Vaksmanın (1906–1967) J.Bizenin "Karmen" operası mövzularında "Fantaziya"sını ifa edib.

Konsertin çoxsaylı dinləyiciləri arasında Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Azərbaycan və Türkiyə səfirliklərinin əməkdaşları, diaspor təmsilçilərimiz də olub.

Qeyd edək ki, ailəsi ilə Türkiyədə yaşayan 27 yaşlı Elvin Hoca Qəniyev indiyədək David Oystrax, Qenrik Venyavski, Karol Lipinski, Yaşa Xeyfes adına və digər nüfuzlu beynəlxalq müsabiqələrin laureatı olub. Berlində beynəlxalq müsabiqənin (2018) qızıl medalına layiq görülüb. Hannover Musiqi, Dram və Media Universitetində magistr təhsili alan ifaçı 2018-ci ildə (21 yaşında) Azərbaycanda "Əməkdar artist" fəxri adına layiq görülən ən gənc sənətçi olub.

# Rumıniya da "Avroviziya"dan imtina edir




Rumıniya təmsilçisi "Avroviziya – 2024" beynəlxalq mahnı müsabiqəsində iştirak etməyəcək. Bu barədə "Avroviziya"nın ölkədəki rəsmi yayımçısı TVR məlumat yayıb.

Televiziya şirkətinin direktorlar şurası maliyyə çətinlikləri və Rumıniyanın digər ölkələrlə rəqabət aparmaq üçün lazımi səviyyəsində təmsil oluna bilməməsi səbəbindən müsabiqədən çıxmaq barədə qərar qəbul edib.

Yayım şirkəti "Avroviziya" üçün nəzərdə tutulan vəsaiti bu il Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarının və digər prioritet layihələrin yayımı üçün ayıracaq.

Qeyd edək ki, "Avroviziya – 2024" may ayında ötənilki müsabiqənin qalib ölkəsi – İsveçin Malmö şəhərində keçiriləcək. Son illər müxtəlif səbəblərdən Macarıstan, Türkiyə, Bolqarıstan, Monteneqro, Slovakiya, Bosniya və Herseqovina və Şimali Makedoniya "Avroviziya"da iştirakdan imtina ediblər. Rusiya isə 2022-ci ildə Ukraynaya qarşı başladığı müharibə səbəbindən Avropa Yayım Şurası tərəfindən müsabiqədən kənarlaşdırılıb.

# 66-cı "Qremmi"nin mükafatçıları

Musiqi dünyasının səbirsizliklə gözlədiyi mərasim – 66-cı "Qremmi" mükafatlarının təqdimatı fevralın 5-nə keçən gecə (Bakı vaxtı ilə) Los-Ancelesdə gerçəkləşib.









Bir çox məşhurların adının iddiaçılar sırasında keçdiyi və qızğın rəqabətlə müşayiət olunan budəfəki "Qremmi"nin əsas qəhrəmanı, gözlənildiyi kimi, amerikalı müğənni Teylor Svift (Taylor Swift) olub. Ötən il "Time" jurnalı tərəfindən "İlin adamı" elan edilən 34 yaşlı müğənni "Qremmi"nin əsas nominasiyası sayılan "İlin albomu" ("Midnight" – "Gecəyarısı") mükafatını dördüncü dəfə qazanaraq tarixə düşüb. İndiyədək bu mükafatın dörd dəfə qalibi əfsanəvi Stevie Vonder, Frank Sinatra və Paul Simon olub. Ümumilikdə isə T.Svift sayca 14-cü "Qremmi" heykəlciyini qazanıb.

Amerikada musiqi dünyasının daha bir ulduzu Billi Ayliş (Billie Eilish) isə "Barbie" filmindəki mahnısına görə əsas "İlin mahnısı" mükafatına layiq görülüb. Qeyd edək ki, bu, 23 yaşlı müğənninin ilk "Qremmi"si deyil. O, 2020-ci ildə üst-üstə beş nominasiya (o cümlədən "İlin albomu" və "İlin mahnısı") üzrə mükafata layiq görülərək özünəməxsus rekorda imza atıb.

66-cı "Qremmi" gecəsinin digər mükafatçılarından üç mükafat qazanmış reper Killer Maykı (Ən yaxşı rep mahnısı, rep performansı və albomu), həmçinin dörd nominasiyada (Ən yaxşı pop duet-qrup iştirakçısı, rok mahnısı, rok performansı və alternativ albom) qalib olmuş rok müğənnisi (xanım) Fibi Bridcesi (Phoebe Bridgers) qeyd etmək olar.

**V. Kamal**

# Tarixdə bu gün



## Olaylar, faktlar (4 – 7 fevral)

### Xronoqraf

### 119 il əvvəl...

**6 fevral 1905-ci ildə** Bakıda erməni daşnak qüvvələrinin müsəlman (türk) əhaliyə qarşı kütləvi qırğınları başlayıb. Çar Rusiyası hakim dairələrinin ölkədəki inqilab dalğasından diqqəti yayındırmaq üçün təhrik etdikləri toqquşmalar fevralın 9-dək sürdü.

### 79 il əvvəl...



**4 fevral 1945-ci ildə** SSRİ (İosif Stalin), ABŞ (Franklin Ruzvelt) və Britaniya (Uinston Çörçill) liderlərinin Krım (Yalta) konfransı işə başlayıb. Fevralın 11-dək davam edən konfransda II Dünya müharibəsinin gözlənilən yekunları müzakirə edilib. Almaniyanın kapitulyasiyasından sonra ölkənin 4 zonaya (4-cü Fransanın zonası oldu) ayrılması, SSRİ-nin Yaponiyaya qarşı müharibəyə başlaması və Koreya yarımadasının 38-ci paralel üzrə bölünməsi razılaşdırılıb. Şimali Koreya SSRİ-nin, Cənubi Koreya ABŞ-nin nəzarətinə keçməli idi.

### 76 il əvvəl...

**4 fevral 1948-ci ildə** Britaniyanın müstəmləkəsi olan Seylon adası müstəqilliyini elan edib. 1972-ci ildən Şri-Lanka Respublikası adlanır.

### 70 il əvvəl...

**4 fevral 1954-cü ildə** Azərbaycanda ən iri su elektrik stansiyası – Kür çayı üzərində Mingəçevir SES istifadəyə verilib. İnşası 1945-ci ildə başlanan Mingəçevir SES Cənubi Qafqazda ən iri su elektrik stansiyasıdır. Stansiyanın işə salınması ilə respublikanın yeni sənaye mərkəzinin – Mingəçevir şəhərinin təməli qoyulub.

### 62 il əvvəl...




**5 fevral 1962-ci ildə** Fransa keçmiş müstəmləkəsi Əlcəzairin müstəqilliyini tanıyıb. Əlcəzair xalqı müstəqillik uğrunda 6 il sürən müharibədən sonra buna nail olmuşdu. Prezident Şarl de Qollun qərarı Fransanın əksər qüvvələrində ciddi etiraz doğurub.

### 39 il əvvəl...

**4 fevral 1985-ci ildə** BMT-nin işgəncələrin qadağan olunması haqqında konvensiyası qüvvəyə minib. 4 fevral dünyada "İşgəncələr əleyhinə gün" kimi qeyd olunur.

### 33 il əvvəl...

**5 fevral 1991-ci ildə** 12-ci çağırış Ali Sovetin ilk iclasında Azərbaycan SSR-in Azərbaycan Respublikası adlandırılması haqqında qərar qəbul olunub. Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi təsdiq edilib. Bundan öncə, 1990-cı ilin 17 noyabrında üçrəngli bayraq Naxçıvan Ali Məclisində qəbul olunmuşdu.

***

**7 fevral 1991-ci ildə** Azərbaycan Respublikasının Ali Soveti Şaumyan (kənd) rayonunun ləğv edilməsi və bəzi rayonların tarixi adları ilə bağlı qərarlar qəbul edib. Ləğv edilən Şaumyan (kənd) rayonunun ərazisi Goranboy rayonuna birləşdirilib. Mirbəşir rayonu Tərtər, Qutqaşen rayonu Qəbələ, Vartaşen rayonu Oğuz, Puşkin rayonu Biləsuvar adlandırılıb.

### 19 il əvvəl...

**7 fevral 2005-ci ildə** Prezident İlham Əliyev milli valyutanın – manatın denominasiyası haqqında fərman imzalayıb. 2006-cı il yanvarın 1-dən dövriyyəyə yeni əsginaslar (1 yeni manat (AZN) – 5000 köhnə manat nisbətində) buraxıldı. 1992-ci ildən dövriyyədə olan köhnə manatlar 2006-cı il dekabrın 31-də tədavüldən çıxarıldı.

**Hazırladı: V.Orxan**

# Vyanada Rasim Ocaqovun xatirə axşamı

Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi, rejissor, operator, dövlət mükafatları laureatı, Xalq artisti Rasim Ocaqovun (1933–2006) 90 illik yubileyi münasibətilə Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) xatirə axşamı təşkil edilib.



AMM-in rəhbəri Leyla Qasımova çıxış edərək sənətkarın həyat və yaradıcılığına nəzər salıb, onun Azərbaycan kino tarixində mühüm rolundan söz açıb.

Rasim Ocaqovun ailə üzvləri adından çıxış edən nəvəsi Nərminə Həsənova yubiley tədbirinin Azərbaycanın müxtəlif şəhərlərində, eləcə də Türkiyənin paytaxtı Ankaradan sonra Avropa mədəniyyətinin beşiyi sayılan Vyanada təşkil olunmasını yüksək qiymətləndirib.

Tədbirdə Rasim Ocaqovun həyat və yaradıcılığından bəhs edən sənədli filmdən ("Baku TV") parçalar nümayiş olunub. Filmdə operator kimi işlədiyi "Əsl dost", "Bizim küçə", "Sən niyə susursan?", "Bir cənub şəhərində", rejissor kimi quruluş verdiyi "Qatır Məmməd", "Tütək səsi", "Ad günü", "İstintaq", "Bağlı qapı arxasında", "Park", "Təhminə", "Həm ziyarət, həm ticarət", "Otel otağı" və digər ekran əsərləri barədə məlumat verilib, onun aktyorlarla iş üslubu, mövzu seçimi, çəkiliş prosesinə yanaşma tərzindən bəhs olunub.

Azərbaycan Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev tədbir iştirakçılarına videomüraciətində Rasim Ocaqovun milli kino mədəniyyəti tarixində silinməz iz buraxdığını, onun yaradıcılıq dövrünün kino tariximizdə ayrıca mərhələ kimi səciyyələndiyini bildirib.

Rasim Ocaqovun filmlərində rol almış Xalq artistləri Şəfiqə Məmmədova və Fəxrəddin Manafov sənətkarla bağlı xatirələrini bölüşüblər. Bildirilib ki, Rasim Ocaqov Azərbaycan kino sənətinə dəyərli ekran əsərləri bəxş etməklə yanaşı, aktyorların püxtələşməsində müstəsna rol oynayıb və rejissorluq işində gənc yaradıcı nəsil üçün örnəyə çevrilib

Tədbir çərçivəsində AMM-də görkəmli rejissorun həyat və yaradıcılığına həsr edilmiş fotosərgi də təşkil olunub. Sərgidə Rasim Ocaqovun ekranlaşdırdığı filmlərdən kadrlar, çəkiliş meydançası və tanınmış kino xadimləri ilə fotoları nümayiş etdirilib.

# Türkiyədə zəlzələdən zərərçəkənlərə ilin sonuna kimi 200 min mənzil veriləcək

Bir il əvvəl, fevralın 6-da səhər saatlarında yaşadığımız Kahramanmaraş mərkəzli zəlzələdə itirdiyimiz canların acısı ilk gün kimi ürəyimizi yandırmağa davam edir.



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu sözləri fevralın 3-də Hatayda ötənilki zəlzələdən zərərçəkənlərin bir qrupuna mənzil açarlarının təslim mərasimində çıxış edərkən deyib.

Ölkə başçısı bildirib ki, zəlzələ 11 vilayət, 124 rayon, 7 minə yaxın kənd və məhəllədə ağır dağıntılara səbəb olub və 14 milyon vətəndaş təbii fəlakətdən zərər çəkib.

Hatayda ilk mərhələdə təxminən 7500 mənzil sahiblərinə verilib. Prezident bildirib ki, yaxın 2 ay ərzində zəlzələ bölgəsində 75 min mənzilin təhvili tamamlanacaq: "Məqsədimiz növbəti dövrdə hər ay 15-20 min mənzil təhvil verməkdir. Beləliklə, ilin sonuna kimi 200 min mənzili təhvil vermiş olacağıq".

Fevralın 6-da Ərdoğan zəlzələnin episentri olmuş Kahramanmaraş şəhərinə gedib. Prezident görülən işlərlə tanış olub, tikintisi başa çatan yaşayış binalarının təhvil verilməsi mərasimində iştirak edib.

Xatırladaq ki, 2023-cü il fevralın 6-da Türkiyənin Kahramanmaraş vilayətində Pazarcık rayonunda olan 7,7 bal və Elbistan rayonunda olan 7,6 bal gücündə iki zəlzələ nəticəsində ümumilikdə 11 vilayətdə 50 mindən çox insan həlak olmuşdu.

Türkiyədə 6 fevral zəlzələlərinin baş verdiyi bölgələrdə dağılan binalarla bağlı aparılan araşdırmalarda 2825 şübhəli haqqında cinayət işi başlanılıb. Bunu Türkiyənin ədliyyə naziri Yılmaz Tunç bildirib. Onun sözlərinə görə, həmin şəxslərdən 267-si barədə həbs qətimkan tədbiri seçilib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5078. **Sifariş:** 316
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641